**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

# “Əlverişli biznes mühitinin yaradilmasinda dövlət tənzimlənməsinin səmərəliliyinin artirilmasi: Azərbaycan timsalinda”

**mövzusunda**

**MAGİSTR DİSSERTASİYASI**

**Rüstəmov Nurlan Abdulla oğlu**

**BAKI – 2019**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

**BMDM-in direktoru**

**i.ü.f.d., dos. Əhmədov Fariz Saleh oğlu**

**__________________ imza**

**"___" ____________ 2019-cu il**

**"Əlverişli biznes mühitinin yaradilmasinda dövlət tənzimlənməsinin səmərəliliyinin artirilmasi: Azərbaycan timsalında"**

**mövzusunda**

**MAGİSTR DİSSERTASİYASI**

**İxtisasın şifri və adı: 060410 Dövlət və bələdiyyə idarəetməsi**

**İxtisaslaşma: Dövlət strukturlarında menecment**

**Qrup: 250**

**Magistrant**
**Rüstəmov Nurlan Abdulla oğlu**

**___________________imza**

**Elmi rəhbər**
**i.ü.f.d. Atakişiyev Ruslan Bahiyəddin oğlu**

**_____________________imza**

**Proqram rəhbəri**
**i.ü.f.d., b/m Şamxalova Samirə Oqtay qızı**

**_____________________imza**

**Kafedra müdiri**
**i.e.d., prof. Kəlbiyev Yaşar Atakişi oğlu**

**_____________________imza**

**BAKI – 2019**

INCREASING THE EFFECTIVENESS OF STATE REGULATION IN CREATING FAVORABLE BUSINESS ENVIRONMENT: EXAMPLE OF AZERBAIJAN


## SUMMARY

**The actually of the subject – The development of entrepreneurship in modern times contributes to the continuation of sustainable development and progress in the country and becomes a comprehensive guarantee of Azerbaijan.**

**The main aim of the issue. Is to increase the effectiveness of the state in the creation of a positive business environment and to investigate the conditions created by the state for business development and support as well as economic reforms.**

**Used research methods: – In the thesis study, analytical and comparative analysis, generalization and systematic approach were applied. In addition, based on the concepts developed by various commercial organizations, statistical data of the Azerbaijan State Statistics Committee, the views of economist experts and various domestic and foreign literatures were used.**

**The information base of the research: State Statistics of the Republic of Azerbaijan Annual reports of the Committee, Finance, Ministry of Economic Development and Taxes Materials in the field of entrepreneurship, legal materials, available on the internet information.**

**Restrictions of research: There is no information about status of unemployments.**

**The results of the research: The article assesses the potencial of development opportunities in some countries of the world and the solution of many social problems.**

**Scientific-practical significance of results: The dissertation explores prospects for business environment in Azerbaijan. Also, the main trends of state support for entrepreneurship and key factors that prevent business activity in the country have been studied.**



**Key words: business environment, reforms, role of the state, development**

# İXTİSARLAR VƏ İŞARƏLƏR

| | |
|---|---|
| **ÜDM** | Ümumi Daxili Məhsul |
| **ABŞ** | Amerika Birləşmiş Ştatları |
| **KOS** | Kiçik və Orta Sahibkarlıq Subyektləri |
| **İKT** | İnformasiya və Kommunikasiya Texnologiyaları |
| **ƏDV** | Əlavə Dəyər Vergisi |
| **XBİ** | Xarici birbaşa investisiyalar |

# MÜNDƏRİCAT

**GİRİŞ** ...... **7**

**FƏSİL I. BAZAR İQTİSADİYYATI ŞƏRAİTİNDƏ BİZNES MÜHİTİNİN İNKİŞAFINDA DÖVLƏT TƏNZİMLƏNMƏSİNİN VACİBLİYİ** ...... **9**

1.1. Biznes mühitinin nəzəri əsasları ...... 9

1.2. Azərbaycanda biznes mühitinin inkişafında dövlətin iqtisadi siyasətlərinin başlıca istiqamətləri ...... 14

**FƏSİL II. SAHİBKARLIĞIN İNKİŞAFINDA ƏLVERİŞLİ BİZNES MÜHİTİNİN FORMALAŞDIRILMASININ VACİBLİYİ** ...... **27**

2.1. Əlverişli biznes mühitinin formalaşmasına təsir edən amillər ...... 27

2.2. Beynəlxalq təcrübədə biznes mühitinin inkişafı ...... 39

**FƏSİL III. MÜASİR DÖVRDƏ AZƏRBAYCANDA ƏLVERİŞLİ BİZNES MÜHİTİNİN FORMALAŞMASI QARŞISINDA DAYANAN PROBLEMLƏR VƏ ONLARIN ARADAN QALDIRILMASI YOLLARI** ... **52**

3.1. Ölkəmizdə əlverişli biznes mühitinin daha da təkmilləşməsi qarşısında mövcud olan problemlər ...... 52

3.2. Biznes mühitinin müasir çağırışlara qarşı dayanıqlılığının artırılması yolları 64

**NƏTİCƏ VƏ TƏKLİFLƏR** ...... **76**

**İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT** ...... **78**

Şəkillərin siyahısı ...... 80

Cədvəllərin siyahısı ...... 80

Qrafiklərin siyahısı ...... 80

# GİRİŞ

**Mövzunun aktuallığı:** Müasir dövrdə sahibkarlığın inkişafı ölkədəki davamlı sabitliyə, tərəqqi və demokratikləşmə prosesinin ildən ilə daha da güclənməsinə öz layiqli töhfəsini verir, Azərbaycanın hərtərəfli qarantına çevrilir. Halal yolla maddi imkanlarını artıran hər bir insan üçün maneəsiz və sərhədsiz biznes mühiti yaradılır, özəl sektorun imkanları genişləndirilir. Təcrübə göstərir ki infrastrukturun yenilənməsi, yeni iş yerlərinin açılması, rəqabət qabiliyyətli məhsul istehsalının artırılması, bir sözlə əsaslı iqtisadi islahatların aparılması ökədə əlverişli biznes mühitinin yaradılmasından daha çox asılıdır.

**Problemin qoyuluşu və öyrənilmə səviyyəsi:** Dövlət müdaxiləsini həyata keçirən orqanlarla biznes subyektləri arasında yaranan münasibətlər, o cümlədən büdcə və vergilərin investisiyaların biznes fəaliyyətinə təsiri, biznesin inkişafına və tənzimlənməsinə dövlətin müdaxilədə istifadə etdikləri tədbirlərlə qarşılıqlı təsiri hesab olunur. Dövlətin iqtisadiyyata , eləcə də biznesə müdaxiləsi bir çox iqtisadi alimlərin diqqət mərkəzlərində olmuş və öz tədqiqatlarında dövlət tənzimlənməsinin müxtəlif aspektlərinin öyrənilməsinə öz töhvələrini vermişlər. Lakin, onu da qeyd etmək lazımdır ki, dövlət tənzimlənməsinin müxtəlif istiqamətlərinin problemləri öyrənilsə də, bütövlükdə, yəni kompleks şəklində hələ də tədqiq olunub öyrənilməyib.

**Tədqiqatın məqsəd və vəzifələri:** Əlverişli biznes mühitinin formalaşmasında dövlətin səmərəliliyinin artırılması istiqamətlərinin, dövlət tərəfindən biznesin inkişafına yaradılan şəraitin və verilən dəstəyin, eyni zamanda həyata keçirilən iqtisadi islahatların tədqiq olunmasıdır. Bu baxımdan iqtisadi islahatlar biznes mühitinin daha da yaxşılaşdırılmasını, təşviq siyasətinin davam etdirilməsini və institusional ıslahatların əhatə edəcəkdir. Dissertasiyada, Azərbaycanda biznes mühitinin inkişafı üçün perspektiv İmkanlar araşdırılmış, həmçinin sahibkarlığa dövlət dəstəyinin əsas istiqamətləri və ölkədə biznes fəaliyyətinə əngəl törədən əsas amillər tədqiq edilmişdir.

**Tədqiqatın obyekti və predmeti:** Tədqiqatın obyekti kimi həcmindən və fəaliyyət göstərdiyi sahəsindən asılı olmayaraq Azərbaycanda mövcud olan biznes subyekləri təşkil edir. Tədqiqatın predmeti kimi isə dövlət müdaxiləsini həyata keçirən orqanlarla biznes subyektləri arasında yaranan münasibətlər, həmçinin büdcənin, vergilərin və investisiyaların biznes fəaliyyətinə təsiri, biznesin inkişafına və tənzimlənməsinə dövlətin müdaxilədə istifadə etdikləri tədbirlərlə qarşılıqlı təsiri hesab olunur.

**Tədqiqat metodları:** Dissertasiya işində analitik və müqayisəli təhlil, ümumiləşdirmə və sistemli yanaşma tətbiq edilmiş, o cümlədən müxtəlif biznes təşkilatların hazırladıqları konsepsiyalar əsasında olan sənədlər, Azərbaycan Dövlət Statistika komitəsinin statistik göstəriciləri, iqtisadçı ekspertlərin fikirləri, o cümlədən müxtəlif yerli və xarici ədəbiyyatlardan da istifadə olunmuşdur

**Tədqiqatın informasiya bazası:** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin illik hesabatları, Maliyyə, İqtisadi İnkişaf və Vergilər Nazirliyinin müxtəlif materialları, eləcə də sahibkarliq sahəsində qanunvericilik materialları və internet şəbəkəsində mövzuya uyğun olan mövcud informasiyalar təşkil edir.

**Tədqiqatın məhdudiyyətləri:** Tədqiqatın aparılmağına əngəl olan nəzəri-metodoloji çatışmazlıqlar, yetərli informasiya bazasının olmamağı və s.

**Nəticələrin elmi-praktiki əhəmiyyəti**: Tədqiqatın nəticələrinin tətbiq edilməsi, sahibkarlıq fəaliyyətinin inkişafına və onun səmərəliliyinin artırılmasına, eləcə də təzə iş yerlərinin açılmasına təsir göstərərək həm də tədris prosesində istifadə edilə bilər. Bu tədqiqat işi nəticəsində Azərbaycan dövləti biznes mühitinin institusional əsaslarını gücləndirəcəkdir. Dissertasiya işinin nəticəsi Azərbaycanda bizneslə məşğul olan dövlət dəstəyinə ehtiyacı olan istənilən şirkətlərdə tətbiq oluna bilər.

**Dissertasiya işinin strukturu və həcmi:** Dissertasiya işi Giriş, 3 Fəsil, 6 paraqraf, Nəticə və təkliflər, Istifadə edilmiş ədəbiyyat siyahısından ibarət olmaqla ümumilikdə 80 səhifədən ibarətdir.

# FƏSİL I. BAZAR İQTİSADİYYATI ŞƏRAİTİNDƏ BİZNES MÜHİTİNİN İNKİŞAFINDA DÖVLƏT TƏNZİMLƏNMƏSİNİN VACİBLİYİ

## 1.1. Biznes mühitinin nəzəri əsasları

Bazar iqtisadiyyatı şəraitində əlverişli biznes mühiti kiçik və orta müəssisələrin inkişafı və eləcə də xarici investisiyaların cəlb edilməsi üçün vacib amillərdən biridir. Biznes mühiti bir ölkədə yerli və xarici şirkətlərin biznеslə məşğul olması və fəaliyyət göstərməsi üçün yaradılmış bir şəraitdir. Hər bir kəs biznes qura bilər, ancaq müvəffəqiyyətlə bu biznesi davam etdirmək üçün bir sıra amillər mütləq nəzərə alınmalıdır. Məsələn, şirkətin hər şeydən əvvəl maliyyə qaynaqlarına ehtiyacı vardır, daha sonra bazara uyğunlaşması üçün uyğun bazar şərtlərini qəbul etməlidir, cəmiyyətə uygunlaşması üçün lazım olan ictimai normaları qəbul etməlidir və s.

Hər bir şirkət bizneslə məşğul olmaq və mənfəət əldə etmək üçün biznes mühitinin hər bir elementlərini nəzərə almalı, effektiv və səmərəli qərar qəbul etmək üçün ətraf mühitlə əlaqələrini başa düşməlidir. Yoxsa bəzi problemlərlə qarşılaşa bilərlər. Məsələn şirkət müəyyən bir  məhsul istehsal edir və bu məhsulun bazar qiymətini öyrənmədən onu idxal edir və bu məhsulu satmaq istədikdə malın maya dəyərinin bazardakı satış qiymətindən baha olduğunu görür.

Biznes mühiti sadə bir anlayış deyildir. Ona təsir edən bir sıra mühüm amillər mövcuddur. Buna qanunun aliliyi, makroiqtisadi şərait, siyasi sabitlik, hökumətə inam və s. daxildir. Ümumiyyətlə ölkədə kiçik və orta müəssisələrin inkişaf etdirilməsi, iqtisadi sabitliyin olması, xarici investisiyaların cəlb olunması onun mühitindən asılıdır. Əgər bir ölkədə müxtəlif vergilər və cərimələrlə yüklənmiş korrupsiya hallarının mövcud olduğu bir mühit varsa, eləcə də siyasi iğtişaşlar və qanunvericilikdə müntəzəm olaraq  dəyişikliklər baş verirsə transmilli şirkətlər və investorlar  bu ölkəyə heç cür investisiya yatırmaz. Bunun üçün də hər ölkə çalışır ki, sağlam və əlverişli biznes mühitinə sahib olsun.

Xarici birbaşa investisiyaların (XBİ) cəlb edilməsi və kiçik və orta müəssisələrin (KOM-ların) inkişafı üçün əlverişli biznes mühiti zəruri amildir.

Qeyri-qənaətbəxş, yəni yüksək xərclər tələb edən, yubadılmalarla və risklərlə müşahidə edilən biznes mühiti iqtisadi inkişafı ləngidir və XBİ-ni qorxudub uzaqlaşdıra bilər. XBİ inkişaf etməkdə olan və keçid dövrünü yaşayan iqtisadiyyatlarda xarici maliyyələşdirmənin ən böyük mənbəyini təşkil edir. Yarış üçün yaxşı mövqelərə malik olan Şərqi və Mərkəzi Avropa, həmçinin Mərkəzi Asiya ölkələri inkişaf yönümlü siyasətləri, həmçinin investisiya və biznes sistemlərinin tərəqqisini dəstəkləyən qanun və təcrübələri qəbul edərlərsə, XBİ uğrunda rəqabətə davamlı ola bilərlər. İrlandiya Respublikasının son illərdəki iqtisadi transformasiyasından belə qənaətə gəlmək olar ki, hətta XBİ üzrə nisbətən aşağı göstəricilərə malik olan ölkələr belə biznes mühitinin təkmilləşdirilməsi istiqamətində məqsədyönlü səylərlə öz XBİ paylarını əhəmiyyətli dərəcədə artıra bilərlər.

Biznes mühitini təşkil edən qüvvələr onun təchizatçıları, rəqiblər, istehlakçı qrupları, media, hökumət, müştərilər, iqtisadi şərtlər, bazar şəraiti, investorlar, texnologiyalar və s. ola bilər. Biznes mühitinə təsir edən bir çox faktor və ölçü vardır. Bu faktorlar bu anlayışın bir çox fərqli komponentləridir. Hansı ki, onlar həmişə çox dinamik və davamlı dəyişkəndirlər. Ümumiyyətlə təşkilatlara təsir göstərən 2 cür mühit vardır:

1. Daxili mühit
2. Xarici mühit

Daxili mühit şirkətə aid olan komponentlərə daxildir. Daxili mühitin təhlili firmanın strategiyasının həyata keçirilməsi üçün çox kritik önəmə malikdir. Öz strategiyasını qurarkən daxili mühiti düşünməyən şirkətlər eyni bazarda olan digər təşkilatlara bənzəyirlər və rəqabətqabiliyyətinə üstünlük verməyən şirkətlər çox ümumi bir strategiya ilə sona çatırlar. Hər bir rəhbərin əsas vəzifəsi daxili amillərin hamısının öz işlərinə təsir dərəcəsini öyrənmək və onu lazımi istiqamətdə dəyişdirməkdir. Buna görə də daxili mühit amillərini şirkət rəhbərliyi daim nəzərə almalıdır. Daxili şərtlər sırasına müəssisənin quruluşu, məqsədlər, vəzifələr, insanlar və texnologiya daxildir. Bu amillərdən birinin dəyişməsi müəssisənin fəaliyyətinə birbaşa təsir edir.

Biznesin xarici mühitinə müəssisəni əhatə edən bütün şərait, onun inkişafına təsir göstərən və onu əhatə edən mühit amilləri kimi tərif etmək olar. Xarici mühit və ya birbaşa yolla təsir edirlər. Bu mühitin özü də 2 qrup faktorlara bölünür.

1. Mikromühit faktorlar
2. Makromühit faktorlar

Mikromühit biznesə birbaşa təsir göstərir və müəssisənin fəaliyyətinə təsir edən qanunları, əmək ehtiyatlarını, cəmiyyəti, istehlakçıları, rəqibləri və s. faktorları özündə ehtiva edir. Mikromühitin əsas amilləri bunlardır:

Biznesin mikromühitinin ən mühüm amili ehtiyat və istehlak bazarlarıdır. Ehtiyat bazarları əmək, kapital, torpaq, informasiya, infrastruktur xidmətləri bazarfannı əhatə edir istehlak bazarları istehsalat və qeyri-istehsalat təyinatlı mal və xidmət bazarlarını əhatə edir. Hər iki növ bazarlarının əsas xarakteristikası tələbat, təklif və qiymətdir. Xarici mikromühit həmçinin müxtəlif ehtiyatların tədarükçülərini, alıcıları, vasitəçiləri və rəqibləri də əhatə edir. (Abbasov A.B, 2005: s. 39-41)

Rəqiblər: Olduğumuz bazar bölümündə mal və xidmət satanlardır. Rəqabətin əsas subyektləri olan biznes sektorundakı müəssisələr digər rəqibləri üstələmək üçün daha müştərilərinə daha çox təkliflər hazırlayırlar. Məsələn, məhsulun keyfiyyətli olması, daha ucuz qiymət, məhsulun tez çatdırılması, dizayn, satışdan sonrakı xidmət, və s. Bəzən şirkətlərdə təşkilati proseslərin mürəkkəbliyi və bürokratiyanın mövcudluğu onların kiçik rəqiblərinə uduzmasına səbəb olur. Bunun digər səbəblərindən biri, bir çox hallarda müştərilərlə sıx əlaqədə olan işçilərə kifayət qədər səlahiyyətin verilməməsidir. Rəqabətdə uğur qazanmağın əsas yollarından biri də müştərilərlə uğurlu münasibətlərdən keçir. Buna görə də bir çox şirkətlər müştərilərlə işləyən işçilərə xüsusi treninqlər keçərək onların təcrübəsinin artırılmasına çalışırlar. Rəqabət üstünlüyü şirkətin rəqiblərindən yaxşı mənada fərqləndirə biləcək cəhətlərin sayəsində formalaşır. Birbaşa və ya dolayısı ilə rəqiblər hər bir təşkilatın mövcudluğuna təhlükə yaradır. Hər bir şirkət öz rəqiblərini dəqiq və vaxtında analiz edib qiymətləndirməlidir. Öz müştərilərinə

daha keyfiyyətli və qənaətcil məhsullar təklif etməlidir. Belə olduğu halda bəzi rəqibləri aradan qaldırmaq olar.

Tədarükçülər (Malgöndərənlər): Müəssisələri və onlara rəqib olan digər firmaları müxtəlif xammal və məhsul ilə təmin edən tədarükçülərdir. Məsələn, bir kompüter istehsalı ilə məşğul olan istehsalçı təchizatçıdan onun bütün zəruri hissələrini götürəcəkdir. Onların fəaliyyətlərinə olan tələbatlar bazarın konyukturundan asılı olaraq dəyişə bilər. İqtisadi yüksəliş dövründə malgöndərənlərə olan tələbat artır. Böhran dövründə və resursların çatışmazlığı şəraitində isə əksinə olur.

Vasitəçilər: Firmalarda məhsulların hərəkətinə və satışına kömək göstərənlər, istehsalçı ilə satıcı və ya müştərilər arasında topdan satış və pərakəndə satış edənlər vasitəçilərdir. Hər bir müəssisə məhsulun istehsalından əvvəl onun istehlakçısını və ya müştərisini tapmalıdır. Bunun üçün isə vasitəçilər işə qoşulur. Onlar ticarət vasitəçiləri, nəqliyyat, siğorta, reklam firmaları, marketinq xidməti üzrə vasitəçilər, distribüterlər və s. ola bilərlər.

Müştərilər: Ən vacib amillərdən biridir. İdarə edənləri günümüzdə ən çox müştərilər maraqlandırır və strategiyalarının çoxunu müştərilər üzərindən qururlar. Onlar fərdi istehlakçılar istehsalçı - istehlakçılar, dövlət idarələri və s. ola bilərlər.

Cəmiyyət: İctimaiyyət daxilində müştərilərdən əlavə digər insanlar, rəqib olmayan digər təşkilat və qurumlar və s. yer almaqdadır.

Makromühit isə bir şirkətin işinə birbaşa olmasa da dolayı yolla təsir edən böyük ictimai faktorlardan ibarətdir. Makromühit ümumi mühit olaraq da bilinir. Bu mühit özündə müəssisənin əlində olmayan qlobal faktorları ehtiva edir. Bunlar şirkətlərə imkanlar yaratdığı kimi müəyyən problemlər də yarada bilərlər. Onlara nəzər yetirək :

Demoqrafik mühit. Bu mühit əhalinin sayı, yaşı və cins tərkibi, artma ya da azalma faizi, işsizlik faizi, təhsil səviyyəsi və coğrafi bölgüsü ilə müəyyənləşir. Bu faktorlar müəssisənin həyatında çox əhəmiyyətl təsirlərə malikdir. Məsələn, əgər əhali böyük olarsa, mal və xidmətə tələbat daha yüksək olacaqdır. Bu, biznesə

müsbət təsir göstərəcəkdir. Eyni şəkildə, təhsil səviyyəsi də işə təsir edən mühüm amildir.

İqtisadi mühit. Biznesin mövcud olduğu iqtisadi şərait iqtisadi mühit adlanır. Biznesin təşkili, fəaliyyət göstərməsi və səmərəliliyi onun iqtisadi mühitindən asılıdır. İqtisadi mühit makroiqtisadi amilləri və xarici mikromühiti əhatə edir. Bura adam başına düşən gəlir payı, işsizliyin səviyyəsi, valyuta siyasəti, makroiqtisadi sabitlik, inflyasiya faizi, xərcləmə məbləği, banklarda faiz dərəcələri, milli valyutanın məzənnəsi, məşğulluğun dinamikası və s. aiddir

Hüquqi mühit. Biznesin fəaliyyətinə təsir göstərən xarici mühit amillərindən biri də fəaliyyət göstərdiyi ölkənin hüquq sistemidir. Hər bir müəssisə rəhbəri istər fəaliyyət göstərdiyi ölkənin, istərsə də dünya dövlətlərinin hüquqi münasibətləri haqqında aydın təsəvvürlərə malik olmalıdırlar. Bu mühitə biznesin normal fəaliyyətinə imkan verən qanuni tənzimləmələr, məhkəmə sistemi, korrupsiyanın vəziyyəti, mülkiyyətin hüquqi qorunması, vergi və gömrük rejimi, biznesin hökumət tərəfindən hansı dərəcədə təşviq edilməsi və s. daxildir. Güclü hüquqi sistemi olan ölkədə hamı qanun qaşısında bərabər olur, biznesin bütün fəaliyyətləri qanunla tənzimlənir, müstəqil və ədalətli məhkəmə sistemi yaradılır.

Sosial mühit. Biznesdə mühüm rola malik sosial amillərin məcmusu başa düşülür. Şirkətlər istehsal etdikləri məhsulun hədəf kütləsini müəyyənləşdirərkən bəzi sosial amilləri nəzərə almalıdırlar. Bura cəmiyyətin əsas milli dəyərləri, yaşam tərzi, istehlak meyilliliyi, demoqrafik dəyişikliklər, iş həyatında qadın rolu, mədəniyyətin sektorlara təsiri, dini amillər və s. daxildir.

Texnoloji mühit. Ən vacib faktorlardan biridir. Bura elmi texniki tərəqqi, İT-nin sürətli inkişafı, e-ticarət, yeni texnologiya məhsulları, materiallar, son məhullar və s. aiddir. Bu amilləri həm ənənəvi, həm də yeni, perspektiv kimi qiymətləndirmək olar. Biznesdə rəqabətin güclənməsi, tamamilə texnologiyaların yaranması müddətinin azalması nəticəsində elmi-texniki tərəqqinin inkişafı getdikcə sürətlənir. Son illərdə baş verən çox mühüm dəyişikliklərdən biri də e-ticarətin inkişafıdır. E-ticarət – kompyuter şəbəkələri vasitəsilə internet üzərindən malların və xidmətlərin alqı-satqısının reallaşdırılmasıdır. E-ticarət şirkətlər,

alıcılar və satıcılar üçün yeni bazardır. E-ticarət sayəsində satıcılar internet vasitəsilə məhsul təkliflərini genişləndirir, alıcılar isə onlayn axtarış edərək istənilən yerdə mağazayalara çıxış əldə edirlər.

Siyasi mühit. Biznesin vəziyyəti dövlətin apardığı daxili və xarici siyasətdən xeyli dərəcədə asılıdır. Biznesin siyasi mühiti dövlətin daxili və xarici siyasətini, Konstitusiya və iqtisadi hüququ, dövlət qurumlarını, siyasi sabitlik, ictimai təşkilatları və s. əhatə edir. Bu amillər təşkilatlara birbaşa və yaxud dolayı yolla təsir edir.

Ekoloji mühit. Bura xammalın və enerji sərvətlərin mövcudluğu, ətraf kirliliyinin qorunması, məhsul və qablaşdırma tullantıları məhsul güvəncəsi, iqlim şəraiti, ekoloji proseslərlə bağlı qanunvericilikdə dəyişikliklər və s. daxildir. Günümüzdə artıq bir çox şirkət bu şərtlərə əməl edirlər. İnsanlara məhsul güvəncəsi verməli məhsul və qablaşdırma tullantılarına laqeyd yanaşmamalıdırlar.

## 1.2. Azərbaycanda biznes mühitinin inkişafında dövlətin iqtisadi siyasətlərinin başlıca istiqamətləri

Biznes mühitinin formalaşdırılması eləcə də sahibkarlığın inkişafının sürətləndirilməsi və dövlət dəstəyinin artırılması üçün dövlət bir sıra zəruri iqtisadi siyasətlər həyata keçirməlidir. Bu cür siyasətlər investisiya mühitinin xeyli yaxşılaşması və müəssisələrin uğur əldə etmələri üçün maksimal imkanlar yaradır. Azərbaycanda dövlətin iqtisadi siyasətinin əsas istiqamətlərindən biri olan biznes mühitinin inkişafının sürətləndirilməsi məqsədilə zəruri islahatlar həyata keçirilmişdir. Bu islahatların əsas məqsədləri dövlətlə sahibkarlar arasındakı münasibətlərin inkişaf etdirilməsi, siyasi və sosial stabillik, iqtisadi siyasətin proqnozlaşdırıla bilməsi, korrupsiyanın ləğvi tədbirləri, gömrük prosedurları, biznes mühitində baş verən və sahibkarların fəaliyyətinə süni müdaxilələrin aradan qaldırılması, sahibkarlara dövlət dəstəyinin təşviqi, elektron hökumət xidmətlərinin tətbiqinin genişləndirilməsidir.

Bu istiqamətdə çox mühüm addımlar da atılmışdır. Buna misal olaraq qanunvericilik bazasının təkmilləşdirilməsi, dövlət büdcəsindən sahibkarların fəaliyyətinə əngəl olan süni müdaxilələrin aradan qaldırılması, dövlət büdcəsindən kiçik və orta sahibkarlıq subyektlərinə ayrılmış vəsaitlərin həcminin artırılması, inzibati prosedurların sadələşdirilməsi, sahibkarlara lisenziyaların müddətsiz verilməsi, vergi güzəştlərinin tətbiqi, sahibkarlıq subyektlərinin qeydiyyatının sadələşdirilib "bir pəncərə" prinsipi əsasında elektron qaydada aparılması, inhisarçılıq fəaliyyətinin qarşısının alınması, maliyyə dəstəklərinin göstərilməsi və s.

Rəqəmsal Ticarət Qovşağı. Azərbaycan Respublikası Prezidenti İlham Əliyev qeyri-neft sektorunun yüksək inkişaf tempini qoruyub saxlamaqla, onun ixrac imkanlarını genişləndirmək və rəqabət qabiliyyətini daha da artırmaq, mövcud elektron ticarətin hüquqi və infrastruktur bazasını beynəlxalq tələblərə uyğunlaşdırmaq, regional əhəmiyyətli rəqəmsal ticarət qovşağı kimi Azərbaycan Respublikasının aparıcı mövqeyini daha da gücləndirmək məqsədilə müvafiq Fərman imzalayıb. (https://azertag.az/xeber/1038238)

Bu fərmanla xarici ticarətdə iştirak etmiş bir neçə dövlət orqanlarına vəzifələr verilir, bu da sahibkarlığın inkişafında lazım olan şəffaflığın, həmçinin hesabatlılığın maksimal dərəcədə artırılmasına yönəldilir. Gözlənilən tendensiyalar arasında elektron imzaların tanınması, eləcə də "asan imza"nın təşviqi, rəqəmsal platformaların yaradılması nəticəsində ölkəyə yararlı investisiya axınlarının artırılmasına təsiri mühüm rol oynayır.

"Azərbaycan Rəqəmsal Ticarət Qovşağı"nın yaradılmasına cavabdeh qurum kimi İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi təyin edilmişdir. Bu Mərkəz həmçinin sahibkarların elektron icazələrin alınmasına imkan yaradan "Bir Pəncərə" sisteminin fəaliyyətini həyata keçirir.

İxracatçılar real vaxt rejimində elektron gömrük bəyannamələrinin doldurulmasını həyata keçirə bilərlər. Bunun üçün ixracatçı ASAN imza və yaxud elektron imza vasitəsilə Rəqəmsal Ticarət Qovşağına daxil olub elektron gömrük bəyannaməsini doldurur.

Rəqəmsal Ticarət Qovşağının əsas üstünlüklərindən biri də burada təklif olunan bütün xidmətlərin "Bir pəncərə" portalından təklif edilməsidir. Bu portal vasitəsilə sahibkarlarla xarici biznes tərəfdaşları arasında mühüm sənədlər, eləcə də, onlar arasında bağlanmış müqavilələrin elektron formada imzalanması nəzərdə tutulur. Rəqəmsal Ticarət Qovşağı xarici investorlara münasib imkanlar yaratmışdır. Həmin imkanlara ayrı-ayrılıqda nəzər yetirək.

Bu imkanlardan biri "Onlayn Vahid İxrac Ərizəsi"dir. Bu xidmət ixracatçılara sadəcə bir ərizə ilə ixrac üçün zəruri olan bütün sənədlərin dərhal əldə edilməsinə imkan yaradır. Bu ərizənin doldurulması sistemi də əslində çox sadədir. Belə ki, istifadəçi tələb olunan əsas məlumatları portala daxil edərək, idxal ölkəsi haqqında və vacib sənədlər haqqında da məlumat əldə edir. Bundan əlavə hər ərizənin doldurulması üçün 5 dəq vaxt sərf olunur və xidmət tam ödənişsizdir Elektron və Mobil rezidentlik hökumətin qeyri-rezidentlərə verdiyi mobil və rəqəmsal şəxsiyyətdir. Dünyanın hər yerindən sahibkarlar ölkəmizdə biznes qura bilər və həmçinin Rəqəmsal Ticarət Qovşağının təklif elədiyi elektron xidmətlərdən də istifadə edə bilərlər. Azərbaycan dünyada mobil rezidentlik təklif edən birinci ölkədir. Elektron rezidentliyin təklifində isə sadəcə Estoniyadan geri qalır.

E-sənəd və ya AsanDoc Portalı - Rəqəmsal Ticarət Qovşağı daxilindəki sənədlərin idarə olunması sistemidir. AsanDoc Portalı identifikasiyası ilə hər cür sənədlərin onlayn paylaşılmasına və imzalanmasına şərait yaradır. E-ixrac əməliyyatları - Portal sahibkarlara yerli məhsulların ixracının stimullaşdırılması məqsədilə vacib olan hər bir prosedurun Rəqəmsal Ticarət Qovşağı vasitəsi ilə elektron qaydada aparılmasına imkan yaradır. Burada elektron ödəniş elektron pul kisəsi vasitəsilə həyata keçirilir İstifadəçi bura daxil olaraq qeydiyyatdan keçir və hesab yaradır. Buradan bank kartı və yaxud digər üsullar ilə balansındakı vəsaiti artırır və Elektron Pul Kisəsi ilə ödənişlərini ödəyir. İstifadəçinin şəxsiyyətinin təsdiq edilməsi üçün istifadə olunan rəqəmsal vasitələrdən biri də Elektron və Mobil İmzadır. Bu imzaların sahibi olan istifadəçilər rəqəmsal mühitdə çox təhlükəsiz və rahat şəkildə elektron xidmətlərdən istifadə edirlər.

Rəqəmsal Ticarət Qovşağı X-Road texnologiyası sayəsində yaradılmışdır. Sözügedən bu texnologiya aşağı qiymət və daha təkmilləşdirilmiş təhlükəsizliyi təmin etmək məqsədilə şaxələndirilmiş qoruyucu bağlantılardan istifadə edir. Bu texnologiya informasiya mübadiləsini həyata keçirən ən təhlükəsiz və müasir protokoldur. Azərbaycan dünyada Estoniyadan sonra bu texnologiyanı tətbiq edən 2-ci ölkədir.

Elektron Ticarət Qovşağının əsas faydaları:

- Sahibkarlar resurslardan daha az istifadə edərək ixracı sürətlə həyata keçirir və elektron ticarətin verdiyi imkanlardan yararlanırlar;
- Elektron ticarətin əhatə dairəsinin genişləndirilməsində böyük rol oynayır;
- Müasir informasiya-kommunikasiya texnologiyalarından səmərəli şəkildə istifadəni təmin edərək ixrac potensialının yüksəldilməsinə öz təsirini göstərir;
- Elektron imzaların qarşılıqlı tanınması həyata keçirilir və ixracatçıların xarici tərəfdaşlarla əlaqələri daha da asanlaşdırılır, eləcə də vaxta ve pula qənaət etmələrinə səbəb olur.

Azərbaycanda son dövrlərdə hökumət tərəfindən həyata keçirilən ən mühüm islahatlardan biri ASAN xidmət tərəfindən yerinə yetirilən və biznes mühitinin yaxşılaşdırılması üçün ən faydalı islahat hesab olunan lisenziyaların verilməsi ilə bağlı olan bir pəncərə sistemidir. Əvvəllər sahibkarlar biznesə başlamaq istədikdə, mürəkkəb və çoxpilləli qeydiyyat prosedurları, eləcə də bəzən qanunsuz müdaxilələrlə qarşı-qarşıya qalırdılar.

Bu halların qarşısını almaq üçün və ölkədə biznes mühitinin formalaşdırılması məqsədilə Prezident İlham Əliyev “Sahibkarlıq fəaliyyəti subyektlərinin fəaliyyətinin “bir pəncərə” prinsipi üzrə təşkilinin təmin edilməsi tədbirləri haqqında” Fərman imzalamışdır. Bu fərmana əsasən 2008-ci il yanvarın 1-indən etibarən bütün sahibkarlıq fəaliyyəti subyektləri “vahid pəncərə” prinsipi ilə fəaliyyət göstərirlər. “Bir pəncərə” sistemi sayəsində bütün məlumatlar vahid mərkəzdə toplanaraq bütün qeydiyyat prosesi sadələşdirilmişdir.

Bu sistemin tətbiqi nəticəsində ümumi prosedurların sayı 3 dəfə, qeydiyyat dövrü isə 20 dəfə azalmışdır. Eləcə də insan ehtiyatlarından istifadəyə də qənaət

edilmişdir. Əvvəllər Vergilər Nazirliyində 500 nəfər çalışırdısa, bu sistem tətbiq olunduqdan sonra sadəcə 85 əməkdaş bu işlə məşğul olur. “Bir pəncərə” psinsipi biznes mühitinin sadələşdirilməsinə çox böyük təsir göstərmişdir. Bu islahat nəticəsində lisenziyaların əldə edilməsi prosesində şəffaflıq artmış, ölkədə kiçik və orta sahibkarlıq subyektlərinin fəaliyyətə başlama prosedurları sürətlənmiş və əlverişli biznes mühitinin inkişafına əhəmiyyətli dərəcədə təsir göstərmişdir.

Azərbaycan Respublikasının Prezidentinin “Lisenziyalaşdırma sahəsində bəzi tədbirlər haqqında” fərmanına əsasən Lisenziyaların verilməsi şərtləri sadələşdirilmiş və həmçinin lisenziyalaşdırılan fəaliyyət növlərinin sayı da azaldılmışdır.

Biznes mühitinin yaxşılaşdırılması, lisenziya tələb edilən fəaliyyət növlərinin sayının 59-dan 37-ə, sahibkarlıq fəaliyyəti növlərinə verilən icazələrin sayı təqribən 4 dəfə azaldılaraq 330-dan 87-ə endirilmişdir. Bundan başqa, bu Qanunda "Lisenziyalar və icazələr" portalının yaradılması, dövlət orqanları tərəfindən lisenziya və icazə məsələləri üzrə sahibkara qanunvericiliyin tətbiqi ilə bağlı məsləhətlərin verilməsi, "bir pəncərə" prinsipinin tətbiqi və sahibkarların işini yüngülləşdirən digər mütərəqqi mexanizmlər müəyyən edilmişdir. (https://www.economy.gov.az/article/sahibkarlar-gunu-cixish/23019)

Bu fərmana əsasən lisenziyaların müddətsiz verilməsi və lisenziyanın ödənilməsi üçün alınan dövlət rüsumlarının məbləğinin 2 dəfə azaldılması nəzərdə tutulmuşdur. Bu fərmandan sonra artıq hər bir sahibkar sadəcə bir dəfə lisenziya alaraq sahibkarlıq fəaliyyətlərinin axırına qədər istifadə edə bilirlər.

Dövlətin həyata keçirdiyi digər mühüm islahatlardan biri də 2015-ci il, noyabrın 1-dən etibarən qüvvəyə minən “Sahibkarlıq sahəsində aparılan yoxlamaların müvəqqəti olaraq dayandırılması haqqında” fərman olmuşdur. Daha sonra 2017-ci il 31 oktyabrda Prezident İlham Əliyev tərəfindən bu qanunda dəyişiklik edilərək yoxlamaların dayandırılması 2021-ci ilin yanvarın 1-nə qədər uzadıldı. Dövlət qurumları tərəfindən aparılan bu yoxlamaların dayandırılması sahibkarların fəaliyyətini asanlaşdırır və biznes mühitini gücləndirir. Uzun müddət

ərzində qeyri-şəffaf keçən yoxlamalar Azərbaycanda biznes sektorunun inkişafına mane olan çətinliklərdən biri olmuşdur.

Hökumət tərəfindən effektiv şəkildə həyata keçirilən və ölkədə biznes fəaliyyətini sadələşdirən sistemli dəyişikliklərdən biri də gömrük sistemində islahatların aparılması ilə bağlıdır. Gömrük Məcəlləsinə edilmiş dəyişikliklər və gömrük əməliyyatları ilə bağlı elektron bəyannamələrin tətbiqi gömrük prosedurlarının səmərəliliyini və şəffaflığını artırmışdır. Ölkəmizdə gömrük-biznes tərəfdaşlığı arasında şəffaflığın təmin edilməsi, bu münasibətlərin beynəlxalq təcrübəyə uyğun olaraq tənzimlənməsi, korrupsiya hallarının qarşısının alınması və əlverişli biznes mühitinin inkişafı üçün çox vacib vəzifələr ortaya qoyulmuşdur.

Bundan başqa gömrük orqanlarının ən son texnologiyalardan yararlanaraq, sahibkarlıq subyektlərinin məmnuniyyətinin təmin edilməsi üçün innovativ yeniliklərin tətbiq olunması nəzərdə tutulur. Bu yeniliklərin biri də ölkəmizdə təzə yaradılan "Yaşıl dəhliz" buraxılış sistemidir. Azərbaycan Respublikasının Prezidentinin 21 may 2016-cı il tarixli fərmanına əsasən Dövlət Gömrük Komitəsi tərəfindən "Yaşıl dəhliz" və digər buraxılış sistemlərinin də tətbiqilə əlaqədar müvafiq infrastrukturlar yaradılmışdır. 2018-ci il 21 dekabr tarixində Prezident tərəfindən "Xarici ticarət iştirakçılarının "Yaşıl dəhliz" buraxılış sistemindən daimi istifadə hüququnu əldə etməsi, həmin hüququn dayandırılması, ləğvi və bərpası Qaydası"nın təsdiq edilməsi haqqında Fərman imzalanmışdır.

Sahibkarlar artıq 2019-cu ilin fevral ayından etibarən heç bir gömrük idarəsinə getmədən öz ofislərindən idxal-ixrac əməliyyatlarını həyata keçirə bilirlər. Və bununla da vaxt məhdudiyyəti aradan qaldırılır, şəffaflıq təmin olunur, məmur və vətəndaş arasındakı münasibətlər minimuma endirilib qeyri-rəsmi ödənişlərin qarşısı alınır. Yaşıl dəhlizdən aşağıdakı şəxslər istifadə edə bilərlər: (http://www.taxes.gov.az/modul.php?name=pages&page=208)

- vergi hesabatlarını Vergi Məcəlləsində nəzərdə tutulmuş müddətlərdə təqdim edən;
- vergiləri vaxtında  və tam həcmdə ödəyən;
- muzdlu işçilərininin sayını və əmək haqlarını düzgün bəyan edən;

- mühasibat uçotunu beynəlxalq və ya milli uçot standartlarına əsasən aparan;

- saxta sənədlər (o cümlədən ciddi hesabat sənədləri) qəbul və təqdim etməyən (əmtəəsiz əməliyyatlar aparmayan);

- gücləndirilmiş elektron imzaya sahib olan və yazışmaların elektron şəkildə aparılmasına üstünlük verən;

- son 3 il ərzində iqtisadi sahədə cinayətin törədilməsinə görə barəsində cinayət təqibi aparılmayan (bəraətverici əsaslarla icraatına xitam verilmiş cinayət işləri istisna olmaqla)

Azərbaycan Respublikası Prezidentinin 18 yanvar 2016-cı il tarixli "İnvestisiyaların təşviqi ilə bağlı əlavə tədbirlər haqqında" Fərmanı investisiya fəaliyyətinin genişləndirilməsi sahəsində çox mühüm əhəmiyyətə malikdir. Belə ki, 2016-cı il aprel ayının 20-də Azərbaycan Respublikası Prezidentinin müvafiq fərmanları ilə "İnvestisiya təşviqi sənədinin verilməsi Qaydası" təsdiq edilmişdir. Bu sənədi almış sahibkarlar əldə etdikləri bütün mənfəət və gəlir məbləğinin 50%-nin vergisindən, eyni zamanda əmlak və torpaq vergisindən, idxal etdikləri texnika və texnoloji avadanlıq idxalına tətbiq edilən ƏDV-dən, idxal rüsumlarından tam 7 il müddətinə azad edilmişdir.

2017-ci ilin 28 dekabr tarixində prezidentin fərmanı ilə İqtisadiyyat Nazirliyinin tabeliyində olan "Azərbaycan Respublikasının Kiçik və Orta Sahibkarlığın İnkişafı Agentliyi" yaradılmışdır. Bu agentliyin əsas vəzifəsi ölkəmizdə sahibkarlıq fəaliyyətinin genişləndirilməsi, KOS-lara müxtəlif xidmətlərin göstərilməsi, sahibkarlıq subyektləri arasında rəqabət qabiliyyətinin artırılması, dövlət dəstəyi tədbirlərinin səmərəsinin və əlverişliliyinin yüksəldilməsi, orqanlarının və müxtəlif təşkilatların bu sahədə fəaliyyətinin gücləndirilməsi, eləcə də ölkənin biznes mühitinin formalaşdırılması məqsədini daşıyır. Bu fərmanda müəyyən edilmiş vəzifələrə uyğun olaraq, Agentlik KOS-lara dəstək infrastrukturunun inkişafına kömək göstərməli, həmçinin KOS-lara dəstək məqsədilə yerli və xarici təşkilatların maliyyə vəsaitlərinin cəlb edilməsi, məqsədli proqramların hazırlanması və icrasının təşkilini təmin etməlidir.

Agentliyin daha bir fəaliyyət istiqaməti KOS-lara təlim-tədris, məsləhət, hüquq, innovasiya, maliyyə xidmətlərinə, həmçinin kadr və informasiya-kommunikasiya resurslarına çıxış, layihələrin idarə olunması, marketinq və satışa dəstək, korporativ idarəetmə və s. digər bu kimi beynəlxalq təcrübədə tətbiq edilən kommunikativ mexanizmlərin, o cümlədən dövlət orqanları və təşkilatları tərəfindən göstərilən xidmətlərin vahid məkanda – "KOS evləri"ndə təşkili və sahibkarlara göstərilən dövlət xidmətlərinin elektronlaşdırılmasıdır. (http://www.smb.gov.az/news)

"Azərbaycan Respublikası Sahibkarlığa Kömək Milli Fondunun vəsaitlərinin istifadəsi mexanizminin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 13 oktyabr tarixli Fərmanı ilə sahibkarlıq subyektlərinə Fondun vəsaitlərindən verilə biləcəyi kiçik həcmli kreditlərin həddi 50 min manata, ortahəcmli kreditlərin həddi 1 milyon manata, böyükhəcmli kreditlərin həddi isə 10 milyon manatadək müəyyən olunmuşdur. Kiçik, orta və böyük həcmli kreditlərin müddətləri müvafiq olaraq 3 (üç), 5 (beş) və 10 (on) il, kreditlərdən istifadə üzrə güzəşt müddəti, kreditin istifadə müddətinin ilk 1/2 dövrünün əhatə ediləcəyi qeyd edilmişdir. (https://www.economy.gov.az/article/guzeshtli-maliyeleshme-mexanizmi/21392)

Prezidentin 15 may 2014-cü il tarixli 168 nömrəli Fərmanı ilə "Texnologiyalar parkı haqqında Nümunəvi Əsasnamə" təsdiq edilmişdir. Azərbaycanda dövlət siyasəti iqtisadiyyatın inkişafının təmin edilməsini, həmçinin yüksək texnologiya əsasında sənayenin davamlı və dinamik inkişafını nəzərdə tutur. Texnologiyalar parklarının yaradılması, dövlətin qeyri-neft sektorunun dinamik inkişafı, iqtisadiyyatın ixrac qabiliyyətinin, həmçinin rəqabətqabiliyyətli və idxalı əvəz edə bilən məhsulların istehsalının artırılması, müasir texnologiyaların və investisiyaların cəlb edilməsi kimi əsas vəzifələrin yerinə yetirilməsi baxımından çox əhəmiyyətlidir. Texnologiyalar parkı yüksək texnologiyaların hazırlanması, onların işlənilməsi və eləcə də təkmilləşdirilməsi məqsədilə müxtəlif elmi tədqiqatların aparılması üçün, onların nəticələrinin sənaye və digər sahələrdə tətbiqi üçün vacib infrastrukturu, maddi-texniki bazaları olan olan ərazidir.

Müasir istehsal infrastrukturuna malik olan yüksək texnologiyalar parkının olması ölkədə iqtisadiyyatın dinamik inkişafına, onun rəqabət qabiliyyətinin artırılmasına, yerli və xarici investisiyaların ölkə üçün əlverişliliyinin artırılmasına yönəlmişdir. Texnoparkların fəaliyyətinin təşkili məqsədilə texnoparkların fəaliyyəti üçün ayrılan ərazilərin istifadəyə yararlı bir vəziyyətə gətirilməsi, texnoparkların infrastrukturunun yaradılması, texnologiya və inkubatorların transfer mərkəzinin yaradılması, innovasiya məhsullarının və yüksək texnologiyaların hazırlanıb işlənilməsi və təkmilləşdirilməsi üçün elmi tədqiqatın həyata keçirilməsi ilə bağlı olan xidmətlərin göstərilməsi kimi bir sıra mühüm tədbirlər həyata keçirilmişdir.

2015-ci il 26 fevral tarixində Azərbaycan Respublikasının Prezidentinin Fərmanı ilə Mingəçevir Yüksək Texnologiyalar Parkı istifadəyə verilmişdir. Fərmana görə, Mingəçevir Yüksək Texnologiyalar Parkının fəaliyyətinin idarə olunmasını və eləcə də inkişaf etdirilməsini “YT Park” MMC həyata keçirməlidir. Bu parkın fəaliyyəti üçün isə 1,3 hektar torpaq sahəsi də ayrılmışdır.

Sahibkarlar üçün ən faydalı olan addımlardan biri KOS-lar üçün digər tələb olunan xidmətlərin, xüsusən bazar araşdırmalarının aparılması, qabaqcıl elmi-texnoloji yeniliklərin tətbiq olunması, biznes inkubatorların fəaliyyətinin təşkili, sahibkarların istehsal elədikləri məhsulların satışına dəstək göstərilməsi, eləcə də sahibkarların müraciətlərinə baxılması və digər xidmətlərin “KOS evləri” vasitəsi ilə həyata keçirilməsidir. Bu addım onların səmərəli fəaliyyətinin təşkilində olduqca əhəmiyyətli rol oynayacaqdır.

Əlverişli biznes mühitinin formalaşdırılmasında əhəmiyyətli siyasətlərdən biri də dövlətin vergi siyasətidir. Ölkəmizdə sahibkarlıq subyektlərinin vergi ödənişlərinin aparılmasını asanlaşdıran mühüm islahatlar həyata keçirilmişdir. Azərbaycanda aparılan vergi siyasətinin əsas istiqamətləri kiçik və orta sahibkarlara əhəmiyyətli vergi güzəştlərinin tətbiq olunması, özəl sektorda fəaliyyət göstərən müəsisələr üçün vergi yükünün azaldılması, vergi ödənişlərində şəffaflığı artırmaqla sahibkarlıq subyektləri ilə vergi orqanları arasındakı inamı artırmaq, biznes fəaliyyəti üçün əlverişli bir şəraitin yaradılması və son nəticədə isə

mövcud iqtisadi potensialın artırılması və əhalinin maddi rifahının yüksəldilməsidir.

Praktikada dövlət vergi siyasətini müxtəlif vergi mexanizmləri vasitəsilə həyata keçirir. Vergilər ümumiyyətlə, dövlət gəlirləri artımının əsas amillərindən biridir. Gəlirlər isə hökumətlərin həyata keçirdiyi məqsədyönlü əməliyyatların maliyyələşdirməsi, eləcə də vətəndaşların təhlükəsizliyi və digər zəruri xidmətlərin təmin edilməsi üçün olduqca vacibdir. Bununla belə, ayrı-seçkiliyə yol verən, qeyri-səmərəli və ağır vergiqoyma siyasəti vergi ödəyicilərinin könüllü olaraq vergiləri ödəməsinə maneələr törədə bilir. Bu isə vergi gəlirlərini azaldır, bəzi şirkətləri mənfi və qeyri-şəffaf təcrübələrə müraciət etməyə təhrik edir. Vergidən yayınma ilə əlaqədar potensial cərimələrin məbləğini artıraraq və düzgün korporativ idarəçilik mədəniyyətini dəstəkləyərək firmaları qeyri-qanuni fəaliyyətlərdən çəkindirmək mümkündür. Ancaq aydın görmək olur ki, qeyri-qənaətbəxş vergi siyasəti və təcrübələri xarici investisiyaları uzaqlaşdırmaqla yanaşı, kiçik və orta müəssisələrin xərclərini artırır, onlar üçün risk yaradır, üstəlik rəqabətədavamlılığa xələl gətirərək onların inkişafına mane olur. Buna görə də inkişaf yönümlü vergi siyasətləri sadəcə vergilərin yığımını maksimum səviyyəyə çatdırmaq deyil, eyni zamanda iqtisadi inkişafı dəstəkləyən əlverişli biznes mühitini qoruyub saxlamağı nəzərə almalıdır.

Müəyyən bir region daxilində investorların hara investisiya yatırmaq qərarına vergiqoyma səviyyəsi təsir göstərə bilir. Bu proses, eyni zamanda vergiqoyma səviyyəsinin gəlirə müsbət təsiri və xarici investorların cəlb edilməsi, sahibkarların fəaliyyətinə təkan verilməsi üzrə siyasət kursunu müəyyənləşdirənlərdə yanlış təsəvvürlər yarada bilər. Üstəlik, vergi dərəcələri aydın ifadə edilmiş rəqəmlər təsiri bağışlasa da, bu təəssürat aldadıcı ola bilər, çünki, inkişaf etmiş vergiqoyma rejimləri bir çox hallarda hədsiz dərəcədə mürəkkəb qaydalar toplusunu irəli sürür, bu da müəssisələrin ödəyəcəkləri vergilərin əvvəlcədən müəyyən edilməsini çətinləşdirir. Nəticədə isə, aşağı nominal vergi dərəcələri təcrübəli sahibkarlara ümumi vergi yükünə nisbətən daha az təsir bağışlayır.

Bundan əlavə, xarici investorları xüsusi imtiyazlarla təmin edən həddindən artıq səxavətli vergi güzəştləri də kiçik və orta müəssisələrə, yerli investorlara mənfi təsir göstərir, idarəetmə xərclərini artırır və bazar məkanında bəzi saxtalaşdırmalara səbəb ola bilir. Beləliklə, mövcud korporativ vergi dərəcələrinin bütün müəssisələr üçün azaldılmasını nəzərdə tutan yanaşma uzun müddətə daha tarazlaşdırılmış və məqsədəuyğun siyasətdir. Bu siyasətin əsas istiqamətlərinə vergiqoymanın sadələşdirilmiş üsullarının aşağıdakı formalarını aid edə bilərik:

Gəlir vergilərinin sadələşdirilməsi. Şirkətlər üçün sadələşdirilmiş vergilər, bərabər fəaliyyət şəraitinin yaradılmasına, şirkətlərin öz xərclərini əvvəlcədən daha yaxşı müəyyənləşdirməsinə, vergilərin könüllü olaraq ödənişinin təmin edilməsinə və daha dəqiq maliyyə planlarını qurmasına, həmçinin vergi yığımı prosesinin asanlaşdırılmasına da kömək edə bilər. Şirkətlər arasında ayrıseçkilik salmayan, aşağı dərəcələrin tətbiq olunduğu daha ədalətli və sadə vergi sistemi sahibkarlığın inkişafı üçün ən düzgün addımdır.

Vahid gəlir vergisi dərəcələri. Vergiqoymanın sadələşdirilməsi üsullarından biri də vergilərin artırılmasını aradan qaldırmaqla "vahid gəlir vergiləri", yəni mənfəət və gəlir vergiləri üçün vahid tarifin tətbiq edilməsidir. Bu tədbirdən müəyyən bir şəraitdə və müddətdə istifadə edilə bilər. Rusiya və Slovakiya daxil olmaqla, Şərqi Avropa ölkələrinin çoxu vahid gəlir vergisini çox müvəffəqiyyətlə tətbiq edir və bu ölkələrin qeyri-rəsmi iqtisadiyyatdan rəsmi iqtisadiyyata keçməsi və həmçinin iqtisadi artım nəticəsində vergi gəlirləri artmışdır.

Qeyd etmək lazımdır ki, Respublikamızda Vergi Məcəlləsinin 101.3-cü maddəsinə əsasən hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxslərin vergiyə cəlb edilən gəlirlərindən 20%, bu Məcəllənin 105.1-ci maddəsinə əsasən müəssisələrin mənfəətindən də 20 faiz dərəcəsi ilə vergi tutulur. (http://www.taxes.gov.az/modul.php?name=qanun&news=75)

Əlavə dəyər vergisi (ƏDV) ödənişləri. Bir çox ölkələrin vergi sistemlərində əvvəl xammaldan vergi tutulur, daha sonra bu xammaldan istehsal edilən yekun məhsuldan yenidən vergi tutulur. Bu da çoxqatlı vergilərin yaranmasına gətirib

çıxarır. Əlavə dəyər vergisi (ƏDV) bu cür problemlərdən qaçmaq imkanı verir. ƏDV ən axırda məhsul və xidmətlərin son istehlakçısından tutulur.

Respublikamızda son zamanlarda iqtisadi fəaliyyətin artırılması və sahibkarlıq fəaliyyətinin dinamik inkişafı məqsədilə vergi sistemində aşağıdakı dəyişikliklər olmuşdur:

- Müəssisələrin və təşkilatların mənfəətlərindən vergi tutulmasının proqresiv sistemindən proporsional sisteminə keçirilməsi, bu vergi növü üzrə vergilərin dərəcələrinin tədricən 35%-dən 25%-ə, daha sonra 20%-ə endirilməsi, o cümlədən ƏDV-nin dərəcəsinin 28%-dən 18%-ə qədər azaldılması, Dövlət Yol Fondunun və bir neçə vergilərin tamamilə ləğv olunması, fiziki şəxslərin gəlirlərindən tutulan vergi dərəcələrinin maksimal həddinin 55%-dən 35%-ə endirilməsi;
- Sosial siğorta ayırmalarının 40%-dən 27%-dək endirilməsi;
- Vergi orqanları tərəfindən tətbiq edilmiş maliyyə sanksiyalarının 2,5-7,5 dəfə, pensiyaların 2 dəfə azaldılması;
- 2001-ci ildən etibarən sadələşdirilmiş sistem üzrə vergilərin tətbiq edilməsi;
- Kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan bütün sahibkarların 2001-ci ildən etibarən 3 il müddətinə torpaq vergisi istisna olmaqla digər vergilərdən azad edilməsi.

Ölkəmizdə vergi siyasətinin səmərəliliyinin artırılmasında vergi güzəştlərinin rolu çox böyükdür. Vergi güzəşti dedikdə, əsasən vergi ödəyicilərinin vergini ödəməkdən tamamilə və yaxud qismən azad olması, verginin aşağı dərəcələrlə hesablanması, ödənilmə müddətinin artırılması və vergitutma bazasının qismən azaldılması üzrə qanunvericilikdə təsbit edilmiş hüquqları nəzərdə tutulur.

Güzəştlərin seçimi zamanı aşağıda verilmiş prinsiplər tətbiq edilməlidir:

- Güzəştlər şəffaf olmalıdır. Hökumət güzəştlərin səmərəliliyini. şirkətlərin qayda və qanunlara riayət edib-etməmələrini yoxlamağa qadir olmalıdır.
- Güzəştlərlə əlaqədar ümumi hökumət strategiyası olmalıdır. İnvestisiya güzəştləri koordinasiya edilməlidir. Hökumətlər ifrat güzəştlərə yol

verməməlidirlər. İnvestorlar bəzi hallarda lazım olduğundan çox müxtəlif güzəştlər alırlar və bu da nəticədə maliyyə çatışmazlıqlarına səbəb olur.

- Güzəştlər məhdud zaman çərçivəsində təsis edilməli, onların qüvvədə olması müddəti də aydın şəkildə ifadə edilməlidir. Vergi güzəştlərinin məqsədi müəssisələrin maliyyə dəstəyi ilə təmin edilməsi deyil, ölkəyə investorların cəlb edilməsi və biznes fəaliyyətinin ilkin mərhələlərində onlara müəyyən kömək edilməsidir.
- Dövlət bütün güzəştlərin mütləq qeydiyyatını aparmalıdır. Müxtəlif dövlət saytlarında bütün güzəşt proqramları aydın şəkildə göstərilməlidir.

# FƏSİL II. SAHİBKARLIĞIN İNKİŞAFINDA ƏLVERİŞLİ BİZNES MÜHİTİNİN FORMALAŞDIRILMASININ VACİBLİYİ

## 2.1. Əlverişli biznes mühitinin formalaşmasına təsir edən amillər

Düzgün idarəetmə, şəffaflıq, sabitlik və eləcə də hadisələrin öncədən görülməsi iqtisadi inkişafın əvəzolunmaz təməl daşlarıdır. Bu cür önəmli siyasi və hüquqi xüsusiyyətlər olmadıqda, iqtisadi inkişafa müsbət təsir göstərən amillər - zəngin təbii ehtiyatlar, aşağı əmək xərcləri və ya aşağı vergilər - gözlənilən nəticələri verməyəcək. Ölkədə qeyri-qənaətbəxş təhlükəsizlik biznes fəaliyyətlərinin əksəriyyətinə mənfi təsir göstərdiyindən, iqtisadi hüquq və azadlıqların mühafizəsini öz prioritet sahəsinə çevirmək hökumətin borcudur. Hökumətlər insan haqlarının təmin edilməsi və cinayətkarlığın qarşısının alınmasından başqa, həmçinin xarici və daxili investisiyaları kompensasiyasız müsadirələrdən, qərəzli tədbirlərdən və siyasi hadisələrdən qaynaqlanan bəzi dövlət orqanlarının yersiz müdaxilələrindən də qorumalıdır.

Qeyd olunan islahatlar ölkə iqtisadiyyatına qoyulan investisiyanın həcminin artırılması məqsədi daşıyır. Beynəlxalq təcrübə də onu göstərir ki, xarici investorlar tərəfdaşlıq zəmnində ölkədə əlverişli investisiya qorunma sisteminin mövcudluğuna xüsusi diqqət ayırırlar. Bu mənada Azərbaycanda 2025-ci ilədək qarşıya qoyulmuş məqsədlərdən biri də xarici investorların dünya standartlarına uyğun fəaliyyət göstərməsinə şərait yaradacaq biznes mühitinin təmin edilməsidir.

Bu yaxınlarda Dünya Bankı tərəfindən açıqlanan “Doing Business 2019” hesabatında ölkəmiz dünyanın 10 ən islahatçı dövlətlər siyahısında ən çox islahatlar aparan ölkəsi elan olunmuşdur. Bu hesabatda Azərbaycan 2017-ci illə müqayisədə öz mövqeyini 32 pillə irəlilədərək 190 ölkə arasında 25-ci yerə qədər yüksəlib və bir çox ölkələri geridə qoyaraq Müstəqil Dövlətlər Birliyi ölkələri arasında lider mövqedə qərarlaşıb. Belə ki ölkəmiz reytinq cədvəlində 78.4 xal toplayaraq Rusiya, Polşa, Avstriya, Ruminiya kimi ölkələri geridə qoymuşdur.

Bununla da ölkədə aparılan kompleks iqtisadi islahatlar nəticəsində "Doing Business 2019" hesabatının bütün indikatorlarını əhatə edib. (şəkil 1)

**Şəkil 1 : "Doing Business 2019" hesabatı üzrə Azərbaycanın sıralaması**




**Mənbə :** http://www.doingbusiness.org/en/rankings

Bu hesabata əsasən, ölkəmiz daha çox "Tikinti üçün icazələrin alınması" və "Kreditlərin alınması" indikatorları üzrə 100 pillə irəliləyərək çox ciddi nailiyyət əldə etmişdir. Bunlarla yanaşı, "Kiçik investorların hüquqlarının qorunması" üzrə dünyada 2-ci yerə, "Biznesə başlama" indikatoru üzrə isə 9-cu yerə yüksəlməyə nail olunub. Bütövlükdə isə "Doing Business 2019" hesabatının 10 indikatoru arasından 8-i üzrə çox mühüm irəliləyişlər qeydə alınıb. Bu indiqatorlar aşağıdakı şəkildə qruplaşdırıla bilər:

1. Biznesə başlama. Bu indiqator üzrə Azərbaycan hazırda "Doing Business 2019" hesabatında "Biznesə Başlama" indikatoru üzrə 190 ölkə arasından 9-cu yerə qədər yüksəlib. Əvvəlki hesabatla müqayisədə ölkəmiz reytinqdə 9 pillə irəliləyib. Belə ki, qeydiyyat sistemi tam sadələşdirilmişdir. Dövlət qeydiyyatının aparılması, ƏDV qeydiyyatının və bank hesabının açılması sadəcə bir prosedurla yekunlaşacaq. Beləliklə "Asan İmza"ya ehtiyac olmayacaq. Həmçinin qeydiyyat üçün müraciət belə tələb edilmir.

Əvvəllər sahibkarlar 3,5 gün ərzində və 3 prosedur keçərək, əvvəlcədən "Asan İmza" üçün 18 AZN ödəyirdilər, indi isə 0,5 gün ərzində, 0 xərclə və bircə prosedurla qeydiyyat təsdiq olunur. Məlumatlar sistemə daxil edilərək həmin

məlumatlar əsasında sahibkarın MMC-si üçün nizamnamə və səhmdarın qərarları hazırlanır. Bu sənədlər tam hazır formada elektron kabinetə yerləşdirilir və səhmdarlar bunu təsdiqlədikdə, elə yerindəcə qeydiyyat və uçot idarəsi bazasına gedir. Bu məlumatlar vahid mərkəzdə toplanaraq dərhal müvafiq dövlət qurumlarına göndərilir. O cümlədən əmək müqavilələri barkodlanıb Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə göndərilir. Həmçinin məlumatlar bank və notarius xidmətinə belə online olaraq ötürülür və bu forma hüquqi qüvvə daşıyır.

Nəticədə biznesə başlamaq üçün heç bir maliyyə vəsaiti və sənədlərin sayı tələb olunmur. Bütün informasiyalar vahid mərkəzdə toplanılır və sahibkar MMC-ni sadəcə 20 dəqiqə ərzində qeydiyyata alır. Beləliklə, elektron imza olmadan "İnternet Vergi İdarəsi"nə daxil olub qeydiyyat sistemində sadəcə FİN kodla identifikasiyadan keçə biləcəklər. Qeydiyyat ərizəsinin məlumatlarını sistemə daxil etdikdən sonra, sadəcə bir prosedurla təsdiqlənir və VÖEN verilmə prosesi yekunlaşır. Bu xidmətdən istifadə edən istifadəçilərə yardım məqsədilə "İnternet Vergi İdarəsi"ndə "Yerli investisiyalı məhdud məsuliyyətli cəmiyyətin e-qeydiyyatı" (elektron imzaya ehtiyac olmadan) Təlimatı yerləşdirilmişdir. Bu addımın atılmasında əsas məqsəd biznes mühitinin əlverişliliyinin yaxşılaşdırılmasına, biznesə başlama prosedurlarının sadələşdirilməsinə, şəffaflığın təmin olunmasına, məmur və sahibkar ünsiyyətinin minimuma endirilməsinə və vətəndaş məmnunluğunun artırılmasına xidmət edir.

2. Tikintiyə icazələrin verilməsi. Bu indiqator üzrə ölkəmiz 100 pillə irəliləyərək 190 ölkə arasından 61-ci yerə yüksəlib. Ölkəmizdə biznes mühitinin institusional əsaslarının gücləndirilməsi, xüsusilə də azad rəqabət mexanizminin inkişaf etdirilməsi və dövlət-biznes münasibətlərində insan amilinin rolunun nisbətən azaldılması yolu ilə səmərəliliyin və şəffaflığın artırılması üçün məqsədyönlü islahatlar həyata keçirilir. Həyata keçirilən bu islahatlar çərçivəsində iqtisadiyyatda tikinti sahəsinin inkişaf etdirilməsi, eyni zamanda tikinti prosedurlarının təkmilləşdirilməsi və bu sahəyə özəl investisiyaların cəlb olunması məqsədilə Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində

dəyişikliklər edilmişdir, tikintiyə icazə alma mexanizmi “vahid pəncərə” prinsipi əsasında sadələşdirilmiş və müraciətlərə baxılma müddətləri də qısaldılıb.

Bu sahədə həyata keçirilən islahatlar nəticəsində prosedurların sayı 18-dən 7-ə qədər azalmışdır. Eləcə də günlərin sayı 116-dan 38-ə, xərclər isə 6566 manatdan 1595 manata düşmüşdür.

Prezident İlham Əliyevin 2018-ci il 28 dekabr tarixli fərmanı ilə ekspertizasının keçirilməsi tələb edilməyən tikinti obyektlərinin tikintisi və istisması sadələşdirilmiş, Dövlət Komitəsi və Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi tərəfindən birgə elektron sistem hazırlanmışdır.

Sistemin əhəmiyyəti bəzi tikinti obyeklərinin tikintisi və istismarına icazənin alınması zamanı prosesin, əlavə vaxt itirilmədən, daha sürətli və şəffaf formada icrasına şərait yaratmaqdır. Belə ki, sifarişçi qeyd olunan sistemdə özünün şəxsi kabinetinə daxil olaraq tələb edilən sənədləri elektron formada yükləyib, 15 iş günü müddətində tikintiyə, 10 gün müddətində isə istismara icazəni əldə edə bilir. Bu da bəzi tikinti obyektlərinin tikintisi və icrasına icazə prosesində əlverişli biznes mühitinin yaradılması, məmur-sahibkar ünsiyyətinin minimuma endirilməsi və vətəndaş məmnunluğuna hesablanıb. Eləcə də hər bir sifarişçinin müraciətinə elektron icazə vərəqəsi onun öz şəxsi kabinetinə göndərilir. İcazə vərəqəsini həm də yazılı formada əldə etmək üçün sadəcə olaraq müraciət zamanı bununla bağlı xüsusi düyməni aktivləşdirmək lazımdır.

3. Elektrik təchizatı şəbəkələrinə qoşulma. Ölkəmiz bu indiqator üzrə 3 pillə irəliləyərək 102-ci pilləyə yüksəmişdir. Ölkədə biznes və investisiya mühitinin əlverişliliyinin artırılması və beynəlxalq reytinqlərdə Azərbaycanın mövqeyinin daha da yaxşılaşdırılması üçün sahibkarlıq obyektlərinin elektrik şəbəkəsinə qoşulması istiqamətində çox ciddi islahatlar aparılır. Belə ki, “Sahibkarların mövcud və inşa ediləcək tikinti obyektlərinin elektrik enerjisi ilə təchizatı prosedurunun sadələşdirilməsi haqqında” Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən verilən Fərmana uyğun olaraq, bir çox işlər görülüb. Həyata keçirilən müxtəlif islahat tədbirləri nəticəsində prosedurların sayı 7-dən 2-yə, sərf edilən müddət isə 41 gündən 20 günə endirilmişdir. Həmçinin sahibkarlara

elektrik enerjisi təchizatı şəbəkələrinə qoşulması üçün də texniki şərtlərin o cümlədən layihə sənədlərinin hazırlanması və göndərilməsi, eləcə də fiziki qoşulmanın təmin edilməsi məqsədilə müraciətlərin kiçik və orta biznes evlərində, “ASAN Kommunal” mərkəzlərində elektron qaydada edilməsinə imkan yaradılıb.

4. Əmlakın qeydiyyatı. Hesabatda Azərbaycan daşınmaz əmlakın qeydiyyatı indiqatoru üzrə ötən illə müqayisədə 4 pillə yüksələrək 190 ölkə arasında 17-ci yeri tutub. Bu göstərici ilə ölkəmiz bir neçə Avropa ölkələrini, həmçinin Polşa, Ruminya, Bolqarıstan kimi ölkələri qabaqlayıb. Hesabata əsasən Azərbaycanda daşınmaz əmlakın dövlət qeydiyyatı sadəcə 1 gün ərzində cəmi 1 prosedurla həyata keçirilir. Qeydiyyat üçün lazım olan bütün proseslər notarius vasitəsilə həyata keçirilir. Ümumiyyətlə daşınmaz əmlakın dövlət reyestrindən çıxarışlarının elektron formada verilməsi, çıxarışların 1 gün müddətində alınması, o cümlədən notariuslar tərəfindən yüklülük haqqında arayışların onlayn qaydada əldə edilməsi, sahibkarların işini xeyli sadələşdirib.

5. Kreditlərin alınması. Bu il ərzində sahibkarlara kreditlərin alınması üzrə müxtəlif yeniliklər təqdim olunmuşdur. Bu yeniliklərin nəticəsidir ki, ölkəmiz bu indiqator üzrə 100 pillə irəliləyərək 22-ci yerə yüksələrək çox ciddi nəaliyyət əldə etmişdir. Prezident İlham Əliyev tərəfindən borc münasibətlərində maliyyə nəzarətinin daha da möhkəmləndirilməsi, maliyyə sisteminin sabitliyinin tam təmin olunması, maliyyə xidmətlərinin əlçatanlığının artırılması istiqamətində fiziki və hüquqi şəxslər barəsində məlumat bazasının formalaşdırılması məqsədilə Azərbaycan Kredit Bürosu yaradılmışdır. “Kredit büroları haqqında” Qanun 28 oktyabr 2016-cı il tarixində Parlamentdə qəbul olunmuş, Azərbaycan Respublikasının Prezidentinin 07 dekabr 2016-cı il tarixli Fərmanı ilə təsdiq edilərək qüvvəyə minmişdir. (http://www.e-qanun.az/framework/34274)

“Kredit büroları haqqında” qanuna əsasən kredit bürolarının yaradılması, onların fəaliyyətlərinin hüquqi əsaslarının formalaşdırılması, o cümlədən kredit tarixçələrinin bürolar tərəfindən hazırlanması və bunun kimi digər məsələlərin də həyata keçirilməsi prinsipləri nəzərdə tutulmuşdur.

İqtisadiyyatda kreditlərin məhdudlaşdırılmasının və həmçinin faizlərin yüksəlməsinin ən böyük səbəblərindən biri də borc alan haqqında olan məlumatların tam olmamasıdır. Kredit bürosu müştərilərin kredit tarixçələrindən istifadə edərək kredit hesabatlarını formalaşdırır. Büro müştərilərin kredit tarixçəsini təşkil edən bütün məlumatları – cari və ödənilmiş borcları, kredit tarixçəsindəki informasiyaları, icra intizamı haqqında məlumatları kredit təşkilatlarından başqa, daha geniş mənbələrdən, həmçinin lizinq, sığorta, kommunal xidmət operatorları, mobil operatorlar və borc öhdəliyi ilə bağlı olan digər bazalardan toplanmasını, saxlanılmasını, təhlil olunmasını, kredit hesabatlarının aparılmasını, habelə borcalanlara fərdi reytinqlərin verilməsini və əlavə dəyər yaradan digər xidmətlərin həyata keçirilməsini də təmin edir. Büroda məlumatlar fiziki və həmçinin hüquqi şəxslər barəsində toplanılır. Bu məlumatlar borcalanların razılığı ilə toplanılaraq paylaşılır. Məlumatların mübadiləsi üçün isə məbləğ məhdudiyyəti yoxdur. Onlar neqativ və ya pozitiv də ola bilər. Beləliklə, kredit bürolarının əhəmiyyətinə nəzər salsaq, 2 mühüm amil qeyd olunur:

Kreditə əlçatanlığın yaxşılaşdırılması - Kredit büroları kreditorlar üçün lüzumsuz informasiyaların azaldıb və aradan qaldıraraq, kredit alma imkanları və prosesinin daha da asanlaşdırılmasına töhfə verir. Həmçinin, kreditlər üzrə maya dəyərinin azaldılması ilə faiz dərəcələrinin də enməsi, borcalanların maliyyə intizamının möhkəmləndirilməsi və nüfuz təminatı ilə kreditlərin əlçatan olması təmin edilir. Nəticə etibarilə, ÜDM-ə nisbətdə kreditlərin ümumi səviyyəsinin artımı gözlənilə bilər.

Kreditləşdirmə sisteminin formalaşdırılması və kredit itkilərinin azaldılması - Düzgün və səmərəli kreditləşmənin həyata keçirilməsi üçün lazımi məlumatlar mövcud olmalıdır. Yəni, kreditorlar tərəfindən potensial borcalanların sayları artırıla, eləcə də ödəmə qabiliyyəti zəif olan və yaxud olmayan müştərilərə kreditlərin verilməsi dayandırıla, ödəmə qabiliyyəti nisbətən yuxarı olan borcalanlara isə daha əlverişli kredit faiz dərəcəsi təklif oluna bilər. Eyni zamanda borcalanların öz öhdəliklərini ödəniş qrafikinə uyğun olaraq icra etmələrini, problemli və qeyri-fəal kreditlərin azaldılmasını da təmin edir.

Məlumdur ki, Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında sahibkarlığın inkişafına dövlət dəstəyi mexanizminin təkmilləşdirilməsi haqqında" 2018-ci il 31 iyul tarixli Fərmanı ilə Sahibkarlığa Kömək Milli Fondu ləğv edildi və İqtisadiyyat Nazirliyinin tabeliyində Sahibkarlığın İnkişafı Fondu publik hüquqi şəxsi yaradıldı. (http://www.e-qanun.az/framework/39705)

Bundan başqa, Maliyyə Bazarlarına Nəzarət Palatası tabeliyində Daşınar Əmlakın Yüklülüyü Reyestri xidməti yaradılmışdır. Bu reyestr ödənişli əsasda, sadəcə yüklülük əməliyyatlarını qeydə alır və onlayn qaydada fəaliyyət göstərir. "Daşınar əmlakın yüklülüyü haqqında" Azərbaycan Respublikasının 2017-ci il 2 may tarixli 667-VQ nömrəli Qanunu qəbul olunmuşdur. (http://www.e-qanun.az/framework/35586)

Bu qanunda göstərilib ki, yüklülüyə dəyişikliklər edilməsi və xitam verilməsi haqqında olan bildirişlərin reyestrə daxil edilməsinə, həmçinin reyestrdə məlumat axtaran müştərinin sorğusu əsasında ona axtarışın nəticəsinə dair kağız daşıyıcılarda təsdiqlənən hesabatın verilməsinə görə müəyyən haqq tutulur. Bu islahatların nəticəsində sahibkarların maliyyə resurslarına da çıxışı artırılıb.

6. Kiçik investorların maraqlarının qorunması. Bu indikator üzrə ölkəmiz dünyada 2-ci yerə qədər yüksəlmişdir. Qanunvericilikdə İcraçı direktor səhmdarların təmin edilmiş iddialarına görə cərimələnə və ya vəzifəsindən kənarlaşdırıla bilər. Kiçik investorların təsbit edilmiş hüquqları aşağıdakılardır:

- Səhmdar cəmiyyətinin iştirakçısı payını satmaq istədiyi halda əvvəlcə mövcud iştirakçılara təklif etməlidir.
- Cəmiyyətin səhminin 50 faiz və daha çox hissəsini satın almaq istəyən alıcılar cəmiyyətin bütün səhmdarlarına müvafiq təkliflər verməlidir.
- Məhdud məsuliyyətli cəmiyyətin hər bir iştirakçısı, iştirakçıların ümumi yığıncağında, eləcə də səsvermədə iştirak etmək, ümumi yığıncağın gündəliyinə dəyişikliklər edilməsini və yeni mövzular əlavə edilməsini təklif etmək hüququ var.

- Məhdud məsuliyyətli cəmiyyətin xalis mənfəəti qanunla müəyyən edilmiş vaxt aralığında bölüşdürülməlidir.
- Cəmiyyətin iştirakçısının payının özgəninkiləşdirilməsi zamanı, həmin pay ilkin olaraq cəmiyyətin digər iştirakçılarına təklif olunmalıdır.

7. Vergilərin ödənilməsi. Bu indikator üzrə isə Azərbaycan keçən illə müqayisədə 35-ci yerdən 28-ci yerə kimi yüksəlib. Azərbaycanda bu indiqator üzrə prosedurların sayı 2, Avropa ölkələrində orta hesabla 5 və OECD ölkələrində 4,8 təşkil edir. Vergilərin ödənilməsi indikatoru üzrə görülmüş işlər nəticəsində işəgötürən tərəfindən ödənilən sosial sığorta haqqının dərəcəsi 22 %-dən 15 %-ə endirilib. Bundan başqa, ƏDV-nin qaytarılması ilə bağlı vergi orqanlarına təqdim edilməli ərizə elektronlaşdırılıb. Həmçinin ƏDV-nin 3 ay ərzində geri qaytarılması müddəti də aradan qaldırılıb.

Ümumiyyətlə, 2018-ci il vergi sahəsində hazırlanan geniş islahatlar paketləri və vergi qanunvericiliyində mühüm dəyişikliklərin edilməsiylə yadda qaldı. Bu islahatların nəzdində, vergi sistemində müasir innovativ texnologiyaların tətbiq edilməsi, idarəetmə prinsiplərinin yenidən təşkili, vergi inzibatçılığının təkmilləşdirilməsi, sistemdə şəffaflığın təmin edilməsi, vergi orqanları və vergiödəyiciləri arasında qarşılıqlı etimadın yüksəldilməsilə bağlı geniş və əhatəli tədbirlər həyata keçirilmişdir. Bunlardan bir neçəsini nəzərdən keçirək:

Struktur islahatları - vergi orqanlarının fəaliyyətində tam şəffaflığın təmin edilməsi, ölkədə vergi inzibatçılığının əlverişli biznes mühitinin yaxşılaşdırılmasına yönəldilməsi məqsədilə aparılan struktur islahatlarının məqsədi vergi orqanlarının əsas funksiyalarının fiskal nəzarətdən vergi ödəyicilərinə xidmət prinsipinə keçirilməsi olmuşdur. Nazirlik aparatının yeni strukturuna Vergi auditi, Vergi ödəyicilərinə xidmət, Vergi siyasəti, Rəqəmsal vergi inzibatçılığı, İqtisadi təhlil və ekspertiza və s. daxil edilib. Yeni strukturlar iyulun 2-dən etibarən fəaliyyətə başlayıb.

İdxal və ixraca birgə nəzarət sistemi - Prezidentin "Ölkədə idxal-ixrac əməliyyatlarına nəzarət sisteminin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" 20 aprel 2018-ci il tarixli Sərəncamına əsasən, Vergilər Nazirliyində yeni İdxal-

ixrac əməliyyatları üzrə Nəzarət Departamenti yaradılmışdır. Bu qurum Dövlət Gömrük Komitəsilə birgə maliyyə nəzarəti sahəsində uçotun şəffaflaşdırılması, qeyri-neft məhsullarının ixracı üzrə prosedurların sadələşdirilməsi büdcə yığımlarının artırılması, ixracın həcminin artırılması və bu istiqamətdə dövlətin fiskal siyasətini həyata keçirən orqanların fəaliyyətinə dəstək verilməsi, idxal-ixrac əməliyyatlarına nəzarət sistemini həyata keçirir.

8. Xarici ticarətin aparılması. Bu indiqator özrə ölkəmizdə çox mühüm islahatlar aparılmışdır. əvvəlki fəsildə vurğulandığı kimi bu ilin fevralından “Yaşıl Dəhliz” buraxılış sistemi tətbiq edilmişdir. Bu addımda əsas məqsəd idxal və ixrac əməliyyatlarında qanunlara riayət edən ixracatçılar üçün daha əlverişli mühit yaratmaq, gömrük nəzarətini daha şəffaf həyata keçirmək və beynəlxalq ticarəti asanlaşdırmaqdır. Bu islahatın həyata keçirilməsi nəticəsində sərhəd buraxılış məntəqələrində yaranacaq tıxaclar aradan qaldırılmış, yük əməliyyatları sahibkarların fəaliyyət göstərdiyi yerdə həyata keçirilmiş, gömrük nəzarətinin səmərəliliyi artırılmış, əlavə yoxlamalar aradan qaldırılmışdır.

9. Müqavilələrin icrasının təmin edilməsi. Biznes mühitinin əlverişliliyinin artırılması, beynəlxalq reytinqlərdə Azərbaycanın mövqeyinin daha da yaxşılaşdırılması və ölkəmizdə sahibkarların hüquqlarının daha etibarlı məhkəmə müdafiəsinin təmin edilməsi üçün prezident İlham Əliyevin qanunvericilik təşəbbüsü ilə 2018-ci il 28 dekabr tarixində Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində və “Məhkəmələr və hakimlər haqqında” Qanununda dəyişikliklər edilmişdir. Bu dəyişikliklər sahibkarlıq subyektlərinin fəaliyyətinin dəstəklənməsi məqsədilə ölkədə həyata keçirilən çoxsaylı tədbirlərdən biridir. Həmçinin dəyişikliklər nəticəsində iqtisadi məhkəmələrə elektron qaydada müraciət imkanları təmin edilmişdir. Elektron forma ilə yanaşı, sənədlərin kağız formasında tələb olunması da aradan qaldırılıb.

Sənədlərin elektron qeydiyyatı və dövriyyəsi Azərbaycan Respublikası Ədliyyə Nazirliyi ilə Azərbaycan Respublikasının Ali Məhkəməsinin müəyyən etdiyi “Elektron məhkəmə” informasiya sisteminin istifadə qaydalarına uyğun həyata keçirilir və sənədlərin digər qaydada verilməsi də tələb oluna bilməz.

Sənədlər elektron şəkildə istifadəçinin şəxsi kabinetinə yerləşdirilir və iştirakçıya bu barədə məlumatlar elektron qaydada çatdırılır. Eləcə də məhkəmə rüsumunun elektron ödənilməsi və tərəflərin hamısının iştirak etdiyi işlərdə məhkəmə işlərilə elektron qaydada tanış olma, o cümlədən hakim və sahibkarlar arasında münasibətlərin elektron qaydada tənzimlənməsi təmin edilmişdir. Hakim və sahibkarlar arasında elektron qaydada yazışma, sənədlərin elektron qaydada təqdim olunması və alınması, bütün qərarların avtomatik elektron dərc edilməsi islahatlar nəticəsində əldə olunan əsas nailiyyətlərdəndir.

10. Müəssisələrin bağlanması. Bu indiqatorla bağlı qanunvericilikdə müəyyən dəyişikliklər edilmişdir. Bu dəyişikliklərdən biri kimi borclunun aktivlərinin satılmasını göstərmək olar. Belə ki, dəyişikliyə görə dəyəri borclunun aktivlərinin 5% və ya daha artıq hissəsini təşkil edən aktivlərin satılması əmlak inzibatçıları tərəfindən hazırlanan satış planına uyğun açıq hərrac yoluyla həyata keçirilir. Borclunun öz əmlak hüquqlarının verilməsinin məhdudlaşdırılması maddəsində dəyişiklik edilib. “Müflisləşmə və iflas haqqında” qanunda imtiyazlı əqdlərin ləğv edilməsi təsbit olunmuşdur.

Kommersiya qanunvericiliyində hökumətlər qlobal və yaxud regional standartlar tətbiq etməklə, qanunları, bəzi tənzimləyici aktları və hökumətin qərarlarını nəşr etməklə, qanunvericilikdə sabitliyi və öz şəffaflığını təmin edə bilərlər. Eləcə də dövlət orqanlarının fəaliyyətlərini və biznes sektorunu necə tənzimləməsi məsələlərini elektron idarəetmə vasitəsilə işıqlandırmaq olar

Ümumiyyətlə, ölkədə güclü biznes mühitini dəstəkləyən və siyasi şəraitin yaradılmasında ən vacib və əhəmiyyətli amillər aşağıdakılardır:

1) Təhlükəsizlik. Biznesin təhlükəsizliyi dedikdə hüquqi, inzibati, təşkilati, tərbiyəvi və digər xüsusi tədbirlərin həyata keçirilməs nəzərdə tutulur. Bu tədbirlərin kompleks şəkildə həyata keçirilməsi sahibkarlara biznes fəaliyyətlərində baş verə biləcək riskləri nisbətən aşağı səviyyəyə endirə bilmələrinə kömək edir. Biznesin təhlükəsizliyinin təmin edilməsində əsasən dövlət orqanları (qanunvericilik, icra, məhkəmə), mühafizə orqanları (polis, milli təhlükəsizlik orqanları, prokratura), Dövlət Gömrük Komitəsi, Vergilər Nazirliyi, eləcə də

kommersiya əsasında biznes təhlükəsizliyinin təmin olunması üzrə xidmət göstərən bəzi xüsusi firma və təşkilatlar da iştirak edirlər.

2) Qanunvericilikdə sabitlik. Ölkədə güclü biznes mühitini dəstəkləyən siyasi şəraitin yaradılmasında mühüm və əhəmiyyətli faktorlardan biri qanunvericiliyin sabit olmasıdır. Daim dəyişən qanunvericilik investorların gəlirlərini planlaşdırmağa öz mənfi təsirini göstərir. Bununla yanaşı mühasibat və audit işi, həmçinin ətraf mühitə təsir və işçi qüvvəsinin idarə olunması kimi biznes fəaliyyətlərinə dair bəzi qaydaların dəyişməsi də investorların xərclərini artırır. Ümumiyyətlə, qeyri-sabit qanunvericilik mühitində xarici investorlar əlverişsiz şəraitin yaranacağı riskinin yüksək olacağını düşünərək, investisiya yatırmaq fikrindən daşına bilərlər.

3) Şəffaflıq. Ölkədə biznes siyasətdən nə qədər uzaq olsa, o qədər sistemli və daha düzgün idarəedilər. Ölkədə şəffaf biznes üçün vacib olan 3 əsas maneələr:

- ✓ Gömrük - Gömrükdən keçirilən hər bir mal tam şəffaf şəkildə ödənişli olmalıdır. Sahibkar malı öz adıyla gətirməli və rəsmi şəkildə qanunvericiliyə uyğun olaraq ödəniş etməlidir.
- ✓ Xarici ödənişlər - Gömrük şəffaf olduğu zaman sahibkar da ödənişləri eyni formada etməlidir. Bu isə bank sektorunda yeniliklərə və eləcə də, xarici ticarətin şəffaf olmasına gətirib çıxaracaq.
- ✓ Vergi - Son olaraq sahibkar vergi sistemində işlərini məcburən şəffaf etməli olacaq, çünki xaricdən mal göndərən şirkət şəffaf işlədiyinə görə, öz kontraqentlərini də eyni şəkildə işləməyə sövq edəcək. Və bu da, vergi ödənişlərinin şəffaf olacağına gətirib çıxaracaq.

4) Korrupsiyadan azad olma. Hələ inkişaf mərhələsində, iqtisadi inkişafın genişləndirilməsi məqsədilə aparılmış bir çox ümidverici islahatlar korrupsiya səbəbindən sərt maneələrlə rastlaşmış və bundan xüsusilə KOM-lar çox böyük əziyyət çəkmişdir. Lakin daha sonra, korrupsiyanın səviyyəsini öyrənmək məqsədilə və ona qarşı aparılan mübarizə metodlarının hazırlanmasıyla bağlı, Korrupsiyaya Qarşı Mübarizə Fondu tərəfindən layihələr həyata keçirilmişdir. Buna misal olaraq, “Kiçik və orta biznesdə korrupsiya problemi və ona qarşı

mübarizə tədbirlərinin görülməsi”, “Təhsil sistemindəki korrupsiya məqamları və onların aradan qaldırılması”, “Qanun və layihələrin antikorrupsion ekspertizası”, “Regionlarda korrupsiyaya qarşı mübarizə ilə bağlı maarifləndirmə tədbirlərinin və sorğuların keçirilməsi” və s.

5) Yaxşı idarəetmə. Ölkələrin öz biznes mühitlərini formalaşdırmaq üçün görə biləcəkləri ən asan və sadə işlərdən biri isə, sadəcə yaxşı idarəetmədir. Dövlət orqanları öz fəaliyyətlərini həyata keçirmək üçün daha səmərəli və məqsədyönlü tədbirlər görməli, qarşılarında duran əsas vəzifələrin yerinə yetirilməsi üçün lazım olan bacarıqlara malik olmalıdırlar. Əgər hökumətlər ölkəyə investisiya yatırmaq istəyən xarici investorların yaxşı idarəetməni görmələrini istəyirsə, onlar bu sahədə olan ən yaxşı təcrübələrdən istifadə edə bilərlər:

- Rəqabətədavamlı və şəffaf özəlləşdirmə və hökumət tenderləri. Dövlət investoru onun özəlləşdirmə və hökumət tenderlərində düzgün rəqabət aparması üçün Xarici investorlar özünün,  özəlləşdirmədə və hökumət tenderlərində daha ədalətli imkanlarla təmin etməlidir. Özəlləşdirmə və hökumət tenderləri açıq və müsabiqə şəraitində keçirilsə və seçim nəticələri barəsində ictimaiyyətə tam məlumatlar çatdırılsa, investorlar hökumətlərin mümkün qədər daha rəqabətədavamlı biznes mühiti yaratmağa çalışdığını başa düşəcək.
- Dövlət borclarının vaxtında ödənilməsi. Müstəqil qurumlar çox hallarda kreditorlara olan borclarının ödənişini yubada bilirlər. Bunun nəticəsində hökumət özünün nağd pul problemlərini həll edə bilsə də, investorlar üçün bu yaxşı əlamət deyil.
- Özəl sektor ilə sistematik məsləhətləşmə prosesinin yaradılması. Ümumiyyətlə özəl sektorla müntəzəm konstruktiv dialoqların aparılması informasiya mübadiləsindən daha çox fayda verə bilər. Çox hallarda qanunvericilik layihəsinə aid müzakirələrin keçirilməsi, eləcə də müəyyən məsələlərə aid forumların təşkili vasitəsilə hökumətlər pulsuz məsləhətlər alır, kommersiya qanunvericiliyini təkmilləşdirərək hökumət proqramlarına daha çox dəstək əldə edir.

Beləliklə gördüyümüz kimi, ölkəmizdə biznes mühitinin formalaşdırılması istiqamətində çox mühüm və əhəmiyyətli addımlar atılır. Bütövlükdə, ölkəmizin inkişafı naminə müasir bazar iqtisadiyyatının əsas tələblərinə cavab verən daha ədalətli, şəffaf və rəqabətqabiliyyətli biznes mühitinin təkmilləşdirilməsi olduqca vacibdir. Ədalətli biznes mühiti ölkəmizin iqtisadi tərəqqisini xeyli sürətləndirər, həmçinin yeni iş yerlərinin açılmasına və bazara yeni investisiyaların cəlb edilməsinə zəmin yaradar. Son nəticədə isə bazarlarda qiymətlərin enməsinə, əhalinin sosial rifahının nisbətən yaxşılaşdırılmasına, bir sözlə Azərbaycanda əhalinin həyat səviyyəsinin daha da yüksəlməsinə imkan verəcək.

## 2.2. Beynəlxalq təcrübədə biznes mühitinin inkişafı

Ölkədə sahibkarlığın inkişafı və onun rəqabətqabiliyyətliliyinin artırılması istiqamətində həyata keçirilən dövlət tənzimlənməsinin təkmilləşdirilməsi, müasir beynəlxalq təcrübəyə uyğun olan biznes və investisiya mühitinin yaxşılaşdırılması və əlverişliliyinin artırılması, eləcə də bu sahədə mütərəqqi tənzimləmə və ölkədə hüquqi bazanın olması ən aktual məsələlərdir.

Beynəlxalq reytinqlərdə Azərbaycanın mövqelərinin daha da yaxşılaşdırılması üçün aşağıdakı vacib istiqamətlərdə fəaliyyətlər davam etdirilir:

- qanunvericiliyin inkişaf etmiş beynəlxalq təcrübələrə əsaslanaraq təkmilləşdirilməsi;
- qəbul edilən qərarların icrasının təmin edilməsi;
- iqtisadi islahatların kommunikasiyasının gücləndirilməsi yoluyla yerli və xarici ictimaiyyətin düzgün məlumatlandırılması.

Biznesin fəaliyyətinin asanlığının vacib göstəricisi hər il Dünya Bankı Qrupu tərəfindən qiymətləndirilən, özəl sektorun fəaliyyətlərinə yardım edən qaydalara və normalara əsaslanan “Doing Business” hesabatıdır. Bu hesabat haqqında əvvəlki bölmədə ətraflı məlumat verilmişdir. Hesabata görə, Azərbaycanda son illər ərzində biznesin təşkili xeyli asanlaşmışdır. Belə ki, bir neçə islahatlar və kompleks tədbirlər, sahibkarlıq subyektlərinin yeni fəaliyyətə başlaması üçün “bir

pəncərə" sisteminin tətbiqi, o cümlədən "vergi və sosial sığorta ödənişləri üzrə" elektron sistemin inkişafı məqsədilə ölkə Prezidentinin 2007-2014-cü illərdə imzaladığı sərəncamlar və digər islahat tədbirləri nəticəsində sahibkarların məmnunluğunun artırılması, eləcə də bu sahədə şəffaflığın təmin edilməsi, inzibati prosedurların sayının azaldılması və xərclərin minimuma endirilməsi, həmçinin dövlət xidmətlərinin göstərilməsində keyfiyyətin xeyli yüksəlməsinə nail olunub.

Beynəlxalq təcrübədə infrastruktur layihələrinin maliyyələşməsində özəl sektorun iştirakının da təmin edilməsi üçün dövlət-biznes tərəfdaşlığı təcrübəsindən geniş istifadə olunur. Məlumdur ki, infrastruktur layihələrinin həyata keçirilməsi üçün irihəcmli investisiya tələb edilir. Dövlətlərin isə maliyyə resurslarının bunu qarşılamaq imkanları məhdud olur. Bu səbəblə, həmin layihələrin icrası zamanı əsasən özəl investisiyalara üstünlük verilir. Belə olduğu halda özəl sektor bu infrastruktur layihələrini özü maliyyələşdirir və bu cür layihələri uzunmüddətli dövrdə idarə edərək, tədricən öz investisiyasını geri götürüb infrastruktur obyektini yenidən dövlətə təhvil verir. Dünyada bu mexanizm vasitəsilə, dəmir yollarının, magistral yolların, hava limanlarının, dəniz limanlarının, kommunal xidmətlər üzrə müxtəlif infrastruktur obyektlərinin maliyyələşdirilməsi təmin edilir. Ölkəmizdə həyata keçirilmiş iqtisadi islahatların səmərəliliyinin artırılması dövlətin özəl sektorla daha sıx əməkdaşlığın qurulmasını zəruri edir. Bu istiqamətdə diqqət cəlb edən vacib məsələ dövlət-özəl tərəfdaşlığıdır.

Bu tərəfdaşlığın hüquqi əsasları baxımından "Tikinti və infrastruktur obyektləri ilə əlaqədar investisiya layihələrinin xüsusi maliyyələşmə əsasında həyata keçirilməsi haqqında" Azərbaycan Respublikasının 2016-cı il 15 mart tarixli 177-VQ nömrəli Qanunu böyük əhəmiyyət kəsb edir. (http://www.e-qanun.az/framework/32613)

Dövlət-özəl tərəfdaşlığında dövlətin birinci məqsədi biznesin real vəziyyəti haqqında dəqiq məlumat əldə etməkdir. Özəl sektorun məqsədi isə dövlətin əsas diqqətini daha çox olan problemlərə yönləndirərək, qanunvericilik bazasının

formalaşdırılması yolu ilə sahibkarlıq mühitinin daha da yaxşılaşdırılmasına çalışmaqdır.

Ötən ilin fevral ayında Prezident İlham Əliyevin göstərişi ilə hələ 2016-cı ildə təməli qoyulmuş Mingəçevir Sənaye Parkında “Mingəçevir Tekstil” MMC-nin iplik istehsalı üzrə 2 müəssisə istifadəyə verilmişdir. Bu, dövlət-özəl tərəfdaşlığının ən yaxşı təzahürüdür. Göründüyü kimi, dövlət sənaye parklarını yaradaraq özəl sektora şərait yaradır və dövlət əgər bu işi öz üzərinə götürməsəydi, özəl sektor və sahibkarlar üçün bu cür nəhəng fabrikləri yaratmaq elə də asan olmayacaqdı. Öz növbəsində, özəl sektor da dövlətin güzəştli şərtlərlə verilmiş sərfəli kreditlərindən yararlanıb, öz vəsaitini qoymaqla belə fabriklər yaradır. Ona görə də Azərbaycanda son illər ərzində yaradılmış sənaye zonaları, sənaye məhəllələri və sənaye parkları bu məqsədə xidmət edir.

Beynəlxalq təcrübədə kiçik və orta sahibkarlığın (KOS-ların) inkişafında biznes inkubatorları çox əhəmiyyətli rol oynayır. Biznes inkubator - başlanğıc mərhələlərdə kiçik sahibkarlıq fəaliyyətinin yaranması və inkişafı üçün onlara kömək edən bir subyektdir. Başqa sözlə desək, kiçik sahibkarlıqla məşğul olmaq istəyən sahibkarlara icarə üçün müəyyən yer ayıran, onlara məsləhət verən, hüquqi və mühasibat məsələlərində yol göstərən subyektdir. Bu, çox əhəmiyyətli və vacib məsələdir. Belə ki, biznes inkubatorlarının işinin düzgün təşkili xüsusilə gənclər arasında mövcud işsizliyin azalmasına, eləcə də regionların inkişafı və innovasiyaların təşviqinə öz müsbət təsirini göstərir. Həmçinin biznes inkubatorları daxilində olan startap layihələrinin icrasına da əlverişli şərait formalaşır. Beynəlxalq təcrübə onu göstərir ki, biznes inkubatorlarının tətbiqi nəticəsində kiçik müəssisələrin inkişafı saylarının artırılmasına və onların əhatə dairəsinin daha da genişləndirilməsinə ehtiyac var. İlk biznes inkubatorlar keçən əsrin 50-ci illərində Amerikada meydana gəlmişdir. Daha sonrakı inkişafını isə Böyük Britaniyada həyata keçirdi. Bu gün də demək olar ki, bütün dünyada biznes inkubatorları vardır.

Bütün xidmətlərin növləri inkubasiya dövrünün əsas mərhələlərindən asılı olaraq dəyişir. Azərbaycanda da biznes inkubatorlarının yaradılması istiqamətində

çox mühüm addımlar atılmışdır. Buna misal olaraq, İqtisadiyyat Nazirliyinin ilk biznes inkubatoru Xaçmaz rayonunda Quba-Xaçmaz Regional İnkişaf Mərkəzi, Aran iqtisadi Rayonu üzrə 2-ci inkubator isə Yevlax şəhərində Aran Regional İnkişaf Mərkəzi yaradılıb. Burada xüsusilə kiçik sahibkarlar və yeni biznes fəaliyyətinə başlamaq istəyənlər müsabiqə əsasında seçilərək biznes inkubatorun iştirakçıları olurlar. Onlara müəyyən treninqlər keçirilir və konsaltinq xidmətləri göstərilir, həmçinin onların gələcəkdə peşəkar bir sahibkar kimi formalaşması üçün imkanlar yaradılır. Bu da nəticədə ölkədə sahibkarlıq fəaliyyətinin inkişafına bir töhfədir.

İnkişaf etmiş ölkələrdə mövcud olan sosial-iqtisadi vəziyyətə uyğun dövlət kiçik və orta sahibkarlığa dəstək sistemində, əsasən də vergi siyasətində müəyyən dəyişikliklər və əlavələr hazırlayıb tətbiq edir. Avropa ölkələrinin çoxunda kiçik və iri biznes subyektləri arasındakı əməkdaşlığın genişləndirilməsinə xüsusi diqqət yetirilir. İri və kiçik şirkətlər arasındakı françayzinq prinsipi əsasında müvafiq sazişlər bağlanılır, kiçik müəssisələr iri şirkətlərin adından, ticarət nişanından, texniki  və maliyyə imkanlarından daha geniş istifadə edirlər. Məsələn, Rusiyada kiçik sahibkarlığa maliyyə dəstəyi ilə Kiçik və Orta Sahibkarlıq Bankı məşğul olur. Almaniyada kiçik sahibkarlığa dövlət dəstəyinin əsasını təşkil edən asas prinsip inkişafı stimullaşdıran köməyin göstərilməsidir. Bunun üçün isə Almaniyada bir neçə xüsusi alətl və konkret proqramlar işlənilib hazırlanmışdır.

Böyük Britaniyada dövlətin büdcə siyasəti kiçik müəssisələrin stimullaşdırılmasında böyük və əhəmiyyətli rol oynayır. Belə ki, dövlət kiçik müəssisələr üçün nisbətən aşağı vergi dərəcəsi qoyur, əlavə dəyər vergisi hesablamaq üçün balans tərtib edir, vaxtı keçmiş borcların ödənilməsində daha effektiv güzəşt sistemi tətbiq edir və s. Burada həmçinin iri və kiçik şirkətlər arasındakı əməkdaşlığın inkişafı da mükafatlandırılır. Belə ki, İqtisadi İnkişaf Milli Şurası kiçik müəssisələrin ixtisaslaşması üzrə kataloq hazırlayaraq onun köməyilə iri şirkətlər potensial tərəfdaşlarını seçə bilir.

Azərbaycanda fiziki və hüquqi şəxslərin maliyyə bazarlarına çıxış imkanları digər ölkələrlə müqayisədə aşağıdır (şəkil 2).

**Şəkil 2: Azərbaycanda maliyyə bazarlarına çıxış**




*1. London Fond Birjası və Alman Birjası (Birləşmiş Krallıq və Almaniya)*
*2. İstanbul Birjası*
*3. Afina Fond Birjası və Varşava Fond Birjası (Yunanıstan və Polşa)*
*4. Moskva Fond Birjası*
*5. Qazaxıstan Fond Birjası*
*6. Bakı Fond Birjası*

**Mənbə**. https://president.az/articles/22197

Maliyyə resurslarına çıxış Azərbaycanda fəaliyyət göstərən KOS subyektlərində potensial artıma nail olmaq üçün sürətləndirici amil hesab edilir. 2014-cü ildə aparılan sorğunun nəticələrinə görə, bu subyektlərin 51%-i maliyyə resurslarına çıxış məsələsini biznesin inkişafında ən vacib maneə kimi görmüşdür. Bu göstərici İrlandiya və Niderlandda 12%, Almaniya və Avstriyada isə 6% təşkil etmişdir. Aşağı gəlir səviyyəsinə malik olan ölkələrdə isə maliyyə resurslarına çıxış nisbətən aşağı səviyyədədir.

Ölkənin mövcud sosial iqtisadi vəziyyətinin təhlili göstərir ki, həyata keçirilən davamlı iqtisadi islahatlar nəticəsində yaradılan güclü iqtisadi potensial iqtisadiyyatın dayanıqlığını xeyli artırmış və ölkədə makroiqtisadi sabitlik təmin edilmişdir. Hesabat dövründə, Azərbaycan Respublikası Prezidentinin müvafiq Fərmanı ilə təsdiq olunmuş Milli iqtisadiyyat və iqtisadiyyatın 11 əsas sektorları üzrə strateji yol xəritələri, konsepsiyalar və müxtəlif dövlət proqramları çərçivəsində müəyyən olunmuş tədbirlərin icrası uğurla davam etdirilmişdir.

Azərbaycanda biznes mühitinin formalaşdırılması, biznesə başlama prosedurlarının sadələşdirilməsi, o cümlədən sağlam rəqabət mühitinin təmin edilməsi, sahibkarlığa dövlət dəstəyinin artırılması, sahibkarların maariflendirilməsi, qanunvericilik bazasının daha da təkmilləşdirilməsi və son 15 ildə həyata keçirilmiş məqsədyönlü tədbirlər nəticəsində ölkə iqtisadiyyatı 3,2 dəfə və sahibkarlıq subyektlərinin sayı 4,3 dəfə artmış, özəl bölmənin payı artaraq 2018-ci ildə özəl sektorun ÜDM-dəki payı 84 %-ə yaxın, məşğulluqda payı 76 % olmuş, 90 mindən çox müəssisə istifadəyə verilmişdir.

**Cədvəl 1: İqtisadiyyatın neft və qeyri-neft bölmələrində ümumi daxili məhsul istehsalı (mln. manatla)**

| İllər | 2014 | 2015 | 2016 | 2017 | 2018* |
|---|---|---|---|---|---|
| **Ümumi daxili məhsul - cəmi** | **59.014,1** | **54.380,0** | **60.425,2** | **70.337,8** | **79.797,3** |
| | | | | | |
| neft-qaz sektoru | 21.405,2 | 15.382,2 | 19.552,6 | 25.005,4 | 33 126,0 |
| qeyri-neft sektoru | 33.195,9 | 34.138,8 | 35.951,1 | 40.328,0 | 46 671,3 |
| məhsula və idxala xalis vergilər | 4.413,0 | 4.859,0 | 4.921,5 | 5.004,4 | 6.228,2 |

**Mənbə :** https://www.stat.gov.az/source/system_nat_accounts/az/007_1.xls

Görülmüş işlərin nəticəsində ölkəmizdə iqtisadi artımın dayanıqlığı xeyli güclənmiş və ölkənin ümumi daxili məhsulu 2017-ci ilə nisbətən 1,4% artaraq 79 797,3 mln. manat təşkil etmişdir. Adambaşına düşən ÜDM-in həcmi isə 8126.2 manat olmuşdur. Eləcə də 2017-ci illə müqayisədə neft sektoru 0,6% artaraq 33 126,0 mln. manat, qeyri-neft sektoru 1,8 % arataraq 46 671,3 mln. manat təşkil etmişdir. (cədvəl 1)

Rəsmi məlumatlara əsasən, 2018-ci ildə ölkəmizdə iqtisadiyyatın və sosial sahələrin inkişafına 17238.2 mln. manat əsas kapitala investisiya qoyulmuşdur. Əsas kapitallara qoyulan bu vəsaitin 69.7%-ni daxili investisiyalar, 30.3%-ni də xarici investisiyalar təşkil edib. 2018-ci ildə əsas kapitala yönəldilən ümumi investisiyaların 11289.3 mln. manatı (65.5%-i) qeyri-neft bölməsinin, 5948.9 mln. manatı (34.5%-i) da neft bömәsinin inkişafında istifadə edilmişdir.

Azərbaycanda iqtisadi sabitliyin bir vacib təzahürlərindən biri də ölkəmizə gələn turistlərin sayıdır. Ölkəmizə maraq göstərən turistlərin sayı ildən-ilə artmaqdadır. Dövlət Statistika Komitəsinin məlumatına əsasən, 2018-ci il ərzində turistlərin yerləşdirilməsi və ictimai iaşə sahəsində yaradılan əlavə dəyər əvvəlki illə müqayisədə 7.6% artaraq 1790.7 mln. manata çatmışdır. Dövlət Sərhəd Xidmətinin məlumatına görə, 2018-ci ildə Azərbaycana dünyanın tam 196 ölkəsindən 2 milyon 850 min nəfər turist gəlib və 2 mlrd. dollara yaxın pul xərcləyib. Turizm potensialının artırılması məqsədilə həyata keçirilən məqsədyönlü tədbirlər öz nəticəsini verir.

Ötən il tam 185 ölkə ilə ticarət əlaqələri qurulmuş və xarici ticarət iştirakçılarının sayı 25.123 olmuşdur, bu isə 2017-ci illə müqayisədə 156 % artım deməkdir. Onlardan 7392-si hüquqi, 17.731-i isə fiziki şəxslərdir. 2017-ci ilə nisbətən bu rəqəm ötən il hüquqi şəxslər üçün 122 % və fiziki şəxslər üçün 176 % artmışdır.

**Cədvəl 2: Azərbaycanda xarici ticarət dövriyyəsi**

| **İllər** | **Milyon ABŞ dolları ilə** | | | |
|---|---|---|---|---|
| | **Xarici ticarət dövriyyəsi** | **İdxal** | **İxrac** | **Saldo** |
| **2012** | **33.560,9** | **9.652,9** | **23.908,0** | **14.255,1** |
| **2013** | **34.687,9** | **10.712,5** | **23.975,4** | **13.262,9** |
| **2014** | **31.016,3** | **9.187,7** | **21.828,6** | **12.640,9** |
| **2015** | **21.945,8** | **9.216,7** | **12.729,1** | **3.512,4** |
| **2016** | **21.946,7** | **8.489,1** | **13.457,6** | **4.968,5** |
| **2017** | **22.593,6** | **8.782,0** | **13.811,6** | **5.029,6** |
| **2018** | **29.200,3** | **11.465,4** | **19.459,2** | **7.994,2** |

**Mənbə:** https://www.stat.gov.az/source/myxs/foreign_trade_indices/f001-az.xls

Cədvəldən də göründüyü kimi, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin verdiyi məlumatlara əsasən, 2017-ci illə müqayisədə, 2018-ci ilin xarici ticarət dövriyyəsi 37% artaraq 30,424 mlrd. dollar təşkil edib. Nəticədə isə, xarici ticarət dövriyyəsinin 7,994 mlrd. dollar həcmində müsbət ticarət saldosu yaranmışdır. Bu da əvvəlki illə müqayisədə 59% çoxdur. (cədvəl 2)

"Yaşıl dəhliz" buraxılış sistemi tətbiq edildikdən sonra idxal və ixrac əməliyyatları zamanı daşınan bütün yüklərin miqdarında artım müşahidə edilmişdir. 2018-ci ilin 1 fevral-15 aprel tarixlərində qeyri-neft sektoru üzrə daşınmış yüklərin

miqdarı ixracda 67 min və idxalda 177 min ton idisə, cari ilin müvafiq bir dövründə bu rəqəm ixracda 130 min və idxalda 207 min tona kimi yüksəlib.

Ölkənin sahibkarlıq sektorunun inkişaf göstəricilərinin dinamikası həyata keçirilən davamlı iqtisadi islahatların uğurlu nəticələrinin təsdiqidir. Həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində ölkə iqtisadiyyatı və onun əsasını təşkil edən sahibkarlığın inkişafı sahəsində müşahidə edilmiş pozitiv meyllər özünü göstərməkdə davam edir.

Yeni qaydalara görə, güzəştli kreditlərdən daha səmərəli şəkildə istifadə edilməsi üçün Sahibkarlığın İnkişafı Fondunun kreditinin illik faiz dərəcəsi 6%-dən 5%-ə qədər endirilib. Eyni zamanda, yeni qaydalara əsasən, orta həcmli kreditlərin maksimum həddi 1000000 manata qədər artırılıb. Sahibkarlara güzəştli kreditlərin verilməsi, əsasən özəl bölmənin maliyyə resurslarıyla təmin edilməsi istiqamətində önəmli mexanizmlərdəndir. İndiyə kimi investisiya layihələrinin ümumi dəyəri orta hesabla 4,9 milyard manat olan 36 minə qədər sahibkarlara 2,2 mlrd manat güzəştli kredit verilib. Hansı ki, bu kreditlərdən istifadə edərək investisiya layihələrinin reallaşdırılması nəticəsində tam 164 minə yaxın təzə iş yerlərinin açılması imkanı da yaradılıb.

Ümumilikdə, 2018-ci ildə sahibkarlıq subyektlərinə tam 117,3 mln. manat güzəştli kreditlər verilib. Bu layihələrin reallaşdırılması nəticəsində isə 7700-dən çox təzə iş yerlərinin açılmasının mümkün olacağı gözlənilir. Artıq yeni qaydalarla sahibkarlıq subyektlərinə kredit təşkilatları vasitəsilə 5,3 milyon manat güzəştli kredit verilmişdir.

İqtisadiyyat Nazirliyinin nəzdində fəaliyyət göstərən Sahibkarlığın İnkişafı Fondunun vəsaitləri hesabına 2018-ci il ərzində layihələrin ümumi dəyəri 617.8 mln. manat olan 999 sahibkara geri qaytarılan vəsaitlər hesabına 160.2 mln. manat, o cümlədən 918 kiçik həcmli layihəyə 10.4 mln. manat güzəştli kredit verilmişdir. Bu kreditlər hesabına 8934 yeni iş yerinin açılması imkanı yaranmışdır. Güzəştli kreditlərin 70.4%-i aqrar sektorun, 29.6%-i müxtəlif sənaye məhsullarının istehsalı və emalının inkişafına verilmişdir. Verilmiş kreditlərin 64.3%-i respublikanın

regionlarının, 35.7%-i isə Bakı şəhərlərinin payına düşür. (https://www.economy.gov.az/article/esas-iqtisadi-gostericiler-2018/29109)

Hazırda kiçik və orta sahibkarlığın inkişafı diqqət mərkəzindədir. Ölkəmizdə kiçik və orta müəssisələrin yaradılması və inkişaf etdirilməsi bazar iqtisadiyyatının əsas şərtidir. Xüsusilə də iqtisadi müstəqillik yolunda uğurla irəliləyən Azərbaycan Respublikasında təsərrüfatın hər bir sahəsini inkişaf etdirmək məqsədilə aparılan uğurlu iqtisadi islahatlar kiçik və orta müəssisələrin yaradılması işlərini xeyli sürətləndirir. Kiçik müəssisələr istehsal edilən məhsulların həcminin azlığı və az sayda işçi qüvvəsinə görə səciyyələnən və təsərrüfat şəraitinin dəyişməsinə xidmət edən təsərrüfat vahidləridir.

2025-ci ilə kimi olan dövr üzrə Azərbaycanda kiçik və orta sahibkarlığın ÜDM-də payının 35%-ə, məşğulluqda payının 40%-ə, ölkənin qeyri-neft ixracında payının isə 25%-ə çatdırılması nəzərdə tutulur. Əsas məqsəd Azərbaycanda ÜDM-in ən az 60%-inin KOS-ların hesabına təmin edilməsinə və qlobal dəyər zəncirlərinə qoşulan yerli KOS şəbəkəsinin yaradılmasına nail olmaqdır. Ölkədə KOS-ların sayının və dayanıqlılığının artırılması məqsədilə onların inkişafının genişlənməsinə və daha çox gəlir əldə etmələrinə nail olunacaqdır.

Bu günə kimi sahibkarlıq subyektlərinin bölgüsü "işçilərin orta siyahı sayı" və "illik gəlir" göstəricilərinə uyğun müəyyənləşdirilib. Belə ki, işçilərin orta siyahı sayı 25 nəfərə qədər, illik gəliri isə 200 min manata kimi olan sahibkarlar kiçik sahibkarlar, işçilərin orta siyahı sayı 25 nəfərdən 125 nəfərə qədər, illik gəliri isə 200 min manatdan 1.250 min manata kimi olan sahibkarlar orta sahibkarlar, işçilərin orta siyahı sayı 125 nəfər və ondan yuxarı, illik gəliri isə 1.250 min manatdan yuxarı olan sahibkarlar isə iri sahibkar olaraq müəyyən olunub. Həmçinin bu sahibkarlıq fəaliyyətinin Azərbaycanın rayonları üzrə müəyyənləşdirilməsi əhəmiyyətli prosesdir. Bu prosesin sürətlənməsi nəticəsində ölkə öz iqtisadi tələbatını ödəməklə yanaşı, eyni zamanda ixracyönümlü məhsulların istehsalına da təkan verəcək.

Qeyd edək ki, 2015-ci il üzrə Respublikamızda qeydiyyatdan keçmiş fiziki və hüquqi sahibkarlıq subyektlərinin 1%-i iri, 2%-i orta, 97%-i isə kiçik sahibkarlardır.

Gördüyümüz kimi, Azərbaycanda kiçik sahibkarlıqla məşğul olanlar olduqca çoxdur. Azərbaycanda KOS-ların inkişafı üçün innovasiya infrastrukturu xeyli təkmilləşdiriləcək, bu istiqamətdə xüsusi proqramlar hazırlanacaqdır. Bu fəaliyyətin maliyyələşdirilməsi üçün isə investisiya güzəştləri tətbiq ediləcəkdir.

2018-ci il ərzində ölkə iqtisadiyyatının qeyri-neft sektorunda 46671.3 mln manatlıq əlavə dəyər yaradılmışdır və onun 55.7%-i sosial və digər xidmətlər, nəqliyyat vasitələrinin təmiri, ticarət və tikinti sahələrinin payına düşmüşdür.

Dövlət Statistika Komitəsinin məlumatına görə, ölkəmizdə iqtisadi fəallığın artırılması, investisiyaların cəlb edilməsinin stimullaşdırılması və ixracyönümlü məhsulların istehsalının dəstəklənməsi məqsədilə 2016-2018-ci illər ərzində tam 292 sahibkarlıq subyektlərinə 333 investisiya təşviqi sənədləri təqdim edilmişdir. Bu sənədi təqdim edilmiş layihələrin reallaşdırılması nəticəsində yerli istehsala 2,8 mlrd manat investisiya yatırılacağı, 21870 təzə iş yerinin açılacağı da nəzərdə tutulmuşdur.

2018-ci ilin 1 dekabr tarixində əhalinin banklardakı əmanətləri 2017-ci ilin 1 dekabr tarixinə nisbətən 9.5% artaraq 8073.5 mln. manat təşkil etmişdir (2017ci ilin dekabr ayının 1-nə əhalinin banklardakı əmanətləri tam 7370.6 mln. manat olmuşdur).

2018-ci ilin 1 dekabr tarixinə cəmi depozitlər illik müqayisədə 12% artmışdır. Milli valyutada olan depozitlər də illik müqayisədə 34.9% artmışdır.

**Qrafik 1: Əhalinin əmanətləri, dövrün sonuna, mln. AZN**




**Mənbə**:https://economy.gov.az//uploads/fm/files/diger/2018%20sosial-iqtisadi.pdf

2018-ci ilin 1 dekabr tarixində iqtisadiyyata maliyyə-kredit təşkilatlarının təqdim etdikləri kreditlərin ümumi həcmi 2017-ci ilin 1 dekabr tarixinə nisbətən 2.8% artaraq 12564.2 milyon manat təşkil etmişdir. 2018-ci ilin 1 dekabr tarixinə milli valyutada verilən kreditlərin ümumi həcmi 2017-ci ilin 1 dekabr tarixi ilə müqayisədə 8.7% artmış və xarici valyutada verilən kreditlərin həcmi isə 5.9% azalmışdır. (https://economy.gov.az//uploads/fm/files/diger/2018%20sosial-iqtisadi.pdf)

**Qrafik 2: İqtisadiyyata kredit qoyuluşları, dövrün sonuna mln. AZN**




**Mənbə:** https://economy.gov.az//uploads/fm/files/diger/2018%20sosial-iqtisadi.pdf

2018-ci il ərzində ölkə ərazisində yaradılan 12 504 yeni müəssisə və təşkilatların 66,4 %-i Bakı şəhərində fəaliyyətə başlayıb.

**Şəkil 3: 2018-ci ilin 9 ayı ərzində yeni açılan daimi iş yerlərinin iqtisadi rayonlar üzrə olan xüsusi çəkisi**




**Mənbə :** (https://economy.gov.az//uploads/fm/files/diger/2018%20sosial-iqtisadi.pdf

Azərbaycanda 2018-ci ilin 9 ayı ərzində yaradılan 9254 yeni müəssisə və təşkilatların 48,9 %-i Bakı şəhərində, 8,6 %-i Abşeron iqtisadi rayonunda, 12,8 %-i Aran iqtisadi rayonunda, 4,0 %-i Quba-Xaçmaz iqtisadi rayonunda, 8,5 %-i Gəncə-Qazax iqtisadi rayonunda, 5,2 %-i Şəki-Zaqatala iqtisadi rayonunda, 6,0 %-i Lənkəran iqtisadi rayonunda, 1,6 %-i Yuxarı-Qarabağ iqtisadi rayonunda, 1,9 %-i Dağlıq-Şirvan iqtisadi rayonunda, 2,1 %-i Naxçıvan Muxtar Respublikasında, 0,4 %-i isə Kəlbəcər-Laçın iqtisadi rayonunda yeni fəaliyyətə başlamışdır. (şəkil 3)

**Qrafik 3: 2018-ci il ərzində yeni açılmış iş yerlərinin bölgüsü**




**Mənbə :** https://www.stat.gov.az saytının hesabatlarına əsasən müəllif tərəfindən tərtib edilmişdir

2018-ci il ərzində ölkəmizdə ümumilikdə 238 947 yeni, həmçinin 127 428 daimi iş yeri açılmışdır. Açılmış daimi iş yerlərinin 8,1 %-i yeni yaradılmış müəssisə və təşkilatlarda, 32,2 %-i mövcud müəssisə və təşkilatlarda, 0,4 %-i fəaliyyətini bərpa etmiş olan müəssisə və təşkilatlarda, 59,3 %-i isə fərdi sahibkarlıq subyektləri tərəfindən yaradılmışdır. (Qrafik 3)

Hüquqi şəxslər tərəfindən yaradılan daimi iş yerlərinin 18,4 %-i ticarət, nəqliyyat vasitələrinin təmiri, 18,3%-i tikinti, 13,7%-i emal sənayesi, 9,4%-i dövlət idarəetməsi və müdafiə, sosial təminat, 8,9 %-i su təchizatı, tullantıların təmizlənməsi və emalı, 5,3%-i peşə, elmi və texniki fəaliyyət, 3,2%-i kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 3%-i təhsil, 2,9%-i digər sahələrdə

xidmətlərin göstərilməsi, 2,8%-i inzibati və yardımçı xidmətlərin göstərilməsi, 2,7%-i daşınmaz əmlakla əlaqədar əməliyyatlar, 11,4 %-i isə digər iqtisadi fəaliyyət növləri üzrə açılmışdır.

2018-ci ildə Mingəçevir Sənaye Parkında "Mingəçevir Tekstil" MMC-nin iplik istehsalı üzrə pambıq-poliester və "Open End" üsulu ilə iplik istehsalı müəssisələri istifadəyə verilib, 750 iş yeri açılmışdır. İnvestisiya dəyəri 144 milyon manat olan fabriklərin yaradılmasına 10 milyon manat güzəştli kredit verilmidir.

2018-ci ildə əhaliyə istehlak bazarında satılmış əmtəə və göstərilmiş xidmətlərin ümumi həcmi keçən ilin müvafiq dövrü ilə müqayisədə 3.1% artaraq 47755.1 mln. manat olmuşdur. 2017-ci illə müqayisədə isə pərakəndə ticarət dövriyyəsi, eyni zamanda əhaliyə göstərilmiş pullu xidmətlərin həcmi 2.5% artmışdır. 2018-ci ildə ölkə sakinləri pərakəndə ticarət şəbəkəsindən tam 18.6 mlrd. manatlıq ərzaq məhsulları, içki və tütün məmulatları və 18.5 mlrd. manatlıq qeyri-ərzaq malları almış və bu göstəricilərin həcmi isə ötən ilin eyni dövrünə nəzərən müvafiq olaraq 2.5% və 3.4% artmışdır.

2018-ci ildə əhalinin nominal gəlirləri 9.2% artaraq 53.7 mlrd. manat təşkil etmişdir. Həmin ilin yanvar-noyabr aylarında isə ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin ümumi orta aylıq əmək haqları 2017-ci illə müqayisədə 2.9% artaraq 540.1 manat təşkil etmişdir.

2017-ci ildə Azərbaycan dünyanın uğurla inkişaf edən dövlətlərindən biri olmuşdur. Bunun nəticəsində Davos Ümumdünya İqtisadi Forumunun "2017-2018 Qlobal Rəqabətlilik Hesabatı"nda Azərbaycan iqtisadiyyatı rəqabət qabiliyyətliliyinə görə 2017-ci ildə 2 pillə irəliləyərək, 137 ölkə arasında tam 35-ci yerdə qərarlaşmışdır. Reytinqə əsasən İnkişafda olan ölkələr arasında Litva 1-ci, Macarıstan 2-ci, Azərbaycan isə 4,69 balla 3-cü yerdə qərarlaşıb.

Davos Ümumdünya İqtisadi Forumunda səsləndirilmiş fikirlər onu göstərir ki, bugün Azərbaycan uğurla inkişaf edir. Eyni zamanda, iqtisadi və siyasi islahatların davam etdirilməsi bütün sahələrdə çox mühüm nailiyyətlərin əldə edilməsini təmin edir. 2017-ci ildə ölkə iqtisadiyyatına 14.6 mlrd. dollar, 2018-ci ildə isə 10 mlrd. dollar sərmayə yatırılmışdır.

# FƏSİL III. MÜASİR DÖVRDƏ AZƏRBAYCANDA ƏLVERİŞLİ BİZNES MÜHİTİNİN FORMALAŞMASI QARŞISINDA DAYANAN PROBLEMLƏR VƏ ONLARIN ARADAN QALDIRILMASI YOLLARI

## 3.1. Ölkəmizdə əlverişli biznes mühitinin daha da təkmilləşməsi qarşısında mövcud olan problemlər

Azad biznes və sahibkarlıq mühitinin mövcud vəziyyəti hər bir ölkənin inkişafında çox mühüm əhəmiyyət kəsb edir. Belə ki, bazar iqtisadiyyatının əsas prinsiplərindən biri olan azad biznes və sahibkarlığa dövlət dəstəyi faktorları ölkənin ümumi inkişafının göstəricisinə çevrilir. Həmçinin, dövlətin təmin elədiyi azad bazar institutu ölkədə özəl sektorun inkişafını stimullaşdıraraq ona geniş meydan verir. Eləcə də ölkədəki xarici sərmayəçilərə yaradılmış mühitin şəffaflıq dərəcəsi də iqtisadiyyatın inkişafının mühüm göstəricilərindən biri hesab edilir. Beləliklə, bazar iqtisadiyyatını vacib meyar seçən Azərbaycan hökumətinin əlverişli biznes mühitilə bağlı həyata keçirdiyi tədbirlər çox mühüm əhəmiyyət daşıyır.

Araşdırma nəticəsində məlum oldu ki, biznes mühitinin münbitliyi geniş olsa da, ölkəmizdə sahibkarlıq subyektlərinin inkişafında bir çox ləngimələr və bəzi hallarda geriləmələr var. Problemin həlli üçün aşağıda qeyd etdiyimiz və sahibkarları ən çox narahat edən məsələlərin həlli əsas amillər olaraq qalır:

1. Sülh şəraiti: Hökumətlər çox vaxt elə hesab edirlər ki, iqtisadi mühit ilə maliyyə şəraiti əlverişli biznes mühitinin formalaşdırılması və xarici investisiyaların cəlb olunması üçün ən zəruri amillərdir. Əlbəttə, bu faktorlar çox mühüm əhəmiyyət kəsb edir, ancaq əlverişli biznes mühitinin yaradılmasında ən mühüm amil çox güman ki, sülh şəraitidir.

Azərbaycanın iqtisadi inkişafına əngəl olan ən vacib problemlərdən biri də Azərbaycan torpaqlarının 20%-nin işğal olunmasıdır. Bunun nəticəsində əvvəllər çox mühüm olan sənaye, kənd təsərrüfatı rayonları istifadədən çıxmış, regionun infrastrukturu, sənaye və yaşayış obyektləri də məhv edilmişdir. Həmçinin, işğal

zonasından qaçqın düşən bir milyondan çox əhalinin işlə təmin olunması, sosial-məişət problemləri, onlara ödənilən müavinətlər ölkəyə əlavə iqtisadi problemlər yaradır. Bu vəziyyət, həm də Naxçıvan Muxtar Respublikası ilə respublikanın paytaxtı arasında olan iqtisadi və nəqliyyat əlaqələrinin də saxlanmasına mane olur. Torpaqlarımız düşməndən azad edilməmiş bu mühüm problemlər həll olunmamış şəkildə də qalmaqda davam edəcək.

Ümumiyyətlə, Qarabağ münaqişəsinin davam etməsi investorların çəkindiyi riskləri xeyli artırır. Müharibə və münaqişə özəl sektorların inkişafı üçün çox önəmli maneədir. Xaricdən Azərbaycana cəlb edilən xarici investisiyalar Dağlıq Qarabağ münaqişəsinin həllində müəyyən qədər öz təsir gücünə malikdir. Onlar münaqişənin genişlənməsindən və müharibənin başlamasından narahatçılıq keçirirlər. Buna görə də müəssisələrin dayanıqlı inkişafının təmin olunması üçün təhlükəsizlik və eləcə də siyasi stabilik çox vacibdir.

2. Yaxşı idarəçilik: Demokratik siyasi institutlar, şəffaf, səmərəli, ictimai və özəl müəssisələr, effektiv antikorrupsiya tədbirləri bazar iqtisadiyyatının və müəssisələrin yüksək səviyyədə inkişafı, eləcə də cəmiyyətin uzunmüddətli məqsəd və dəyərləri üçün vacib şərtlərdir. Son illərdə antikorrupsiya tədbirləri hökumət siyasətinin ən əsas prioritetinə çevrilsə də problemlər hələ də qalmaqdadır. Ümumiyyətlə, korrupsiya hər bir sahədə inkişafa mane ola bilən siyasi və iqtisadi haldır. Əsasən də, regionlarda, hətta çox cüzi korrupsiya halının baş verməsi ölkədə qanunun aliliyinin bərqərar olmasını, yoxsulluğun aradan qaldırılmasını, iş yerlərinin açılması kimi əsas proseslərin ləngiməsini şərtləndirir. Eləcə də dövlət xərclərinin artmasına, savadsız kadrların hazırlanmasına, təhsilin keyfiyyətinin aşağı düşməsinə və regionlara ayrılmış dövlət investisiya layihələrinin doğru idarə edilməməsinə gətirib çıxarır. Eyni zamanda, biznesin aparılması xərclərini də artırır. Vəzifəli şəxslərə rüşvət ödənilməsinə sərf edilən vaxt, həmçinin, pul, çox mürəkkəb qanun və qaydalar da biznesin aparılması xərclərini artırır. Həmin bu xərclər istehlakçılara ötürülməklə malların qiymətlərini də yüksəldir.

Korrupsiya demokratik təsisatlara mənfi təsir edir, iqtisadi artıma mane olur və iqtisadi əməliyyatların qarşısını alır. Bu şəraitdə iqtisadi inkişaf olmur. Ona görə

ki, birbaşa xarici investisiyaların qarşısı alınır və kiçik bizneslər korrupsiyaya görə onlardan tələb olunan ilkin xərcləri də ödəyə bilmirlər. Korrupsiya ölkədə məhsuldarlığı azaltmaqla bərabər, innovasiyaları da məhdudlaşdırır.

Korrupsiya şəraitində fərdi sahibkarlar və müxtəlif şirkətlər vaxtlarının və həmçinin resurslarının böyük hissəsini inkişafın yüksəldilməsi istiqamətində deyil, korrupsiya istiqamətində (rüşvətlərin ödəyərək, korrupsiyalı orqanlarla əlaqə quraraq və s.) sərf edirlər. Bu cür sistemlərdə mülkiyyət hüquqlarını qoruyan orqanların hüquqi normaları da tələb edilən səviyyədə olmur.

Korrupsiya xüsusilə, kiçik müəssisələrə böyük ziyan vurur. Çünki korrupsiyayla bağlı yüksək xərclər iri şirkətlərdən fərqli olaraq kiçik və orta müəssisələrin fəaliyyətlərinə daha çox təsir edir. Ümumiyyətlə, kiçik müəssisələr bu cür mənfi hallardan qaçmaq üçün iri müəssisələrə nisbətən daha az gücə malikdirlər. Yüksək rəqabətli bazarlarda çəkdikləri xərcləri istehlakçılara ötürə bilmədikləri üçün buna davam gətirə bilmirlər. Kiçik və orta müəssisələr bir çox iqtisadiyyatların yüksəldilməsində əsas rol oynadığından bu cür vəziyyət iqtisadiyyatın artım səviyyəsinə kritik zərbə vurur.

3. Hüquqi və tənzimləyici mühitin təmin edilməsi: Qanunların mürəkkəbliyi, qanunvericiliyin sabit olmaması, eləcə də qanunlar haqqında məlumatların yayımlanması üçün vasitələrin kifayət olmaması ümumilikdə, sahibkarların hüquqi biliklərinin zəifləməsinə gətirib çıxarmışdır. Şəffaf, daha məsuliyyətli və yaxşı məlumatlandırılmış qaydalar, eləcə də əmək və ekoloji standartları təmin edənlər bazar və cəmiyyət üçün yaxşıdır. Ona görə ki, onlar formalaşdırmağı və rəqabət qabiliyyətini artırırlar.

Bir çox sahibkarlar iqtisadi mübahisələrin həllində məhkəmələrə müraciət etmir. Bu hal uzun illər ərzində formalaşan məhkəmə sisteminə etimadsızlıq və inamsızlıqdan irəli gəlir. Məhkəmə sistemlərində olan korrupsiya halları şirkətlərin müqavilələr üzrə öhdəliklərini tələb etməsi və normal əməliyyatlar aparması kimi önəmli imkanları məhdudlaşdırır və yeni imkanların yaranmasına da əngəllər yaradır.

Ümumiyyətlə, aşağıdakı müşahidələr məhkəmələrə müraciət səviyyəsinin aşağı olmasının izahı ola bilər:

- hesab edilir ki, nüfuzlu biznesmenlər və rəsmi şəxslər öz xeyirlərinə olan qərarın qəbul olunmasına özləri nail ola bilərlər;
- həyata keçirilən prosedurlar şəffaf deyil və proses vaxtı qeyri-rəsmi ödənişlərə də şərait yaranır;
- proses biraz baha başa gələ bilər, qısaca sahibkarlar uzunmüddətli planda çox vəsait itirə bilərlər.
- Zəif tərtib olunmuş qaydalar və müəssisələr üzrə lazımsız olan bürokratik yüklər müəssisələrin başlanğıclarını və mövcud şirkətlərin fəaliyyətlərini məhdudlaşdırır, habelə korrupsiya və məhsuldarlıq xərclərinə gətirib çıxarır.

Sahibkarların mübahisələrin həlli üçün birbaşa məhkəməyə müraciət etməsi biznes üçün neqativ hallara səbəb ola bilər. Eləcə də hüquq departamentləri olmayan kiçik və orta sahibkarlar üçün müdafiə prosesində ixtisaslı hüquqşünasların cəlb edilməsi yüksək maliyyə məsrəflərinə gətirib çıxara bilər.

Beynəlxalq təcrübədə məhkəmə sistemini alternativ prosedurlar əvəz edir. Alternativ mübahisələrin həlli metodlarına vasitəçinin iştirakı ilə danışıqlar, vasitəçilik, arbitraj məhkəməsi, ekspertin müstəqil rəyi, özəl məhkəmə, araşdırma və s. kimi müxtəlif formalar müşahidə edilir.

Mübahisələrin məhkəməyəqədər həllinin alternativ üsullarının təkmilləşdirilməsi üçün mediasiya haqqında qanunun qəbulu nəzərdən keçiriləcəkdir. Qanunda mediasiyanın tətbiq dairəsi, məqsəd və prinsipləri, mediatorların müstəqilliyi və qərəzsizliyi, mediasiya proseduruna müdaxilənin yolverilməzliyi və s. məsələlər əhatə olunacaqdır. (Strateji Yol Xəritəsi səh-37)

4. Sahibkarlıq mədəniyyəti: Azərbaycanda sahibkarlıq mədəniyyətinin artırılması çox mühüm məsələlərdən biridir. ehtiyac lazımi səviyyədə deyil. Məhz bu səbəbdən də bəzi sahibkarlar müxtəlif üsullarla vergidən yayınaraq, məqsədlərinə nail olmağa çalışırlar. Halbuki, bu fəaliyyətlə məşğul olanlar bilməlidirlər ki, vergiləri vaxtı-vaxtında ödəmək onların borcudur. Bütövlükdə vergi sahəsində vəziyyətin yaxşılaşdırılması Vergilər Nazirliyinin həyata keçirdiyi

mühüm islahatlarla yanaşı, həmçinin sahibkarlıq mədəniyyətinin yüksəlməsindən də asılıdır. Eləcə də sahibkarlıq mədəniyyətini hədəf alan proqramlara işçilərin hüquqlarına hörmət daxil edilməlidir.

5. Qanunun aliliyi və mülkiyyət hüquqlarının qorunması: Bütün vətəndaşların və müəssisələrin müqavilələrə layiq görüldüyünü və onların qüvvədə qaldığını təmin edən effektiv və formal hüquq sistemi, hüququn üstünlüyünə hörmət, mülkiyyət hüquqlarının təhlükəsiz olması təkcə investisiyalar cəlb etmək üçün deyil, həmçinin cəmiyyətdə inam və ədalətin yetişdirilməsi üçündür. Əmlak ümumilikdə sadə mülkiyyətdən daha çoxdur. Əgər hansısa bir insanın mülkiyyət hüququ pozulsa bu zaman qanunla nəzərdə tutulan müdafiə vasitələrindən istifadə edib öz hüququnun bərpası üçün müəyyən edilmiş işlər görməlidir. Məsələn, Konstitusiyamızda göstərilir ki, heç kim məhkəmənin qərarı olmadan öz mülkiyyətindən məhrum edilə bilməz. Bundan başqa mülkiyyət hüquqları imkanların genişləndirilməsi üçün bir vasitə olmaqla kredit və kapitala çıxış imkanı təmin edə bilər. Bu da cəmiyyətdə qadınlar üçün daha geniş imkanlar açır. Onlar həm də cəmiyyət tərəfindən müəyyən edilən qanun və qaydalara riayət etməyi də öz öhdəliklərinə götürürlər.

6. Ədalətli rəqabət: Təsərrüfat subyektləri arasında olan azad rəqabət mühiti firmaları daha çox keyfiyyətli məhsul istehsal etməyə və həmçinin istehsal prosesinin təkmilləşdirilməsi üçün də stimul yaradır. Belə ki, istehsal prosesinin təkmilləşdirildiyi və eləcə də elmi-texniki tərəqqinin ən son nailiyyətlərinin istehsalata tətbiq olunduğu şəraitdə məhsulun keyfiyyətini daha da yüksəltmək və qiymətlərin səviyyəsini də nisbətən aşağı salmaq mümkündür. Ümumi götürdükdə, bazarın başlıca atributu kimi azad və ədalətli rəqabət mühitinin formalaşdırılması qiymətlərin səviyyəsinin endirilməsində əsas şərt kimi çıxış edir.

Azad və ədalətli rəqabət mühitinin formalaşmasına mənfi təsir edən və bu sahədə müxtəlif deformasiyalar yaradan başlıca amillərdən biri təsərrüfat subyektlərinin inhisarçılığının geniş yayılmasıdır. Onu da vurğulamaq lazımdır ki, əksər postsovet ölkələrində təsərrüfat bazarının inhisarlaşması müxtəlif möhtəkirlər

tərəfindən həyata keçirilir. Bazarda hakim bir mövqeyə sahib olan möhtəkirlər təbəqəsi istehsalçıların bazarlara buraxılmasına öz mənfi təsirlərini göstərirlər.

İnhisarçılığa qarşı mübarizə əsasən iki vacib istiqamətdə aparılır. Birinci istiqamətdə azad rəqabətin inkişafına köməklik göstərilərək bazarların ardıcıl olaraq tənzimlənməsi tədbirinin görülməsidir. İkinci istiqamət isə inhisarçı mövqe tutan sahibkarların kapitallarının birləşdirilməsi üzərində nəzarət və onların məhsullarının qiymətlərinə dövlət nəzarəti qoymaqdır. Özəl sektor üçün əmək və sosial standartlara hörmət edən universal rəqabət və milli səviyyədə anti-rəqabət təcrübələrini aradan qaldırmağı nəzərdə tutan müsabiqə qaydalarını müəyyən etmək lazımdır.

7. Maliyyə xidmətlərinə çıxış: Yaxşı fəaliyyət göstərən maliyyə sistemi artan və dinamik özəl sektor üçün vacib rol oynayır. Bu gün sahibkarlıq subyektlərinin inkişafında yaranan problemlərin əsas səbəblərindən biri də maliyyə problemidir. Aparılmış təhlillər göstərir ki, əslində ölkəmizin maliyyə qaynaqları olduqca zəngindir. Lakin kiçik və orta sahibkarların bu imkanlardan yararlanma imkanı kifayət qədər məhduddur. Ümumiyyətlə, maliyyəyə çıxış əsasən 3 mənbədən qaynaqlanır:

- ✓ Ölkə ərazisində fəaliyyət göstərən bank və ya bank olmayan kredit təşkilatları;
- ✓ Dövlət tərəfindən elan olunan tenderlər;
- ✓ Sahibkarlığın İnkişafı Fondu

Hər üç halda da sahibkarların məzmunca üzləşdikləri əsas problemlər eynidir:

- Faiz dərəcələrinin yüksək olması;
- Bürokratik əngəllər;
- Tenderlərin qeyri-rəsmi rəqiblərin himayəsində olan şirkətlər tərəfindən udulması
- Girov təminatı üçün qoyulmuş əmlakların qeyri-şəffaf qiymətləndirilməsi və s.

Hazırda Azərbaycanda sahibkarlıq subyektlərinə maliyyə xidmətləri göstərən müxtəlif qurumlar mövcuddur. Bu qurumlar aşağıdakılardır: (Strateji yol xəritəsi 2016, s.39)

"Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondu" (SKMF). Bu fond sahibkarlara güzəştli kreditləri, həmçinin dövlət büdcəsindən əlverişli kreditlərin ayrılmasını təmin edir. Özəl bölmədə investisiya layihələrinin maliyyələşmə mexanizmlərindən olan İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondunun ən başlıca məqsədi sahibkarların əlverişli və uzunmüddətli şərtlərlə maliyyə resurslarına çıxışının tam təmin olunması və eləcə də rəqabət mühitinin yaradılmasıdır. İndiyə kimi sahibkarlara orta hesabla 2,2 mlrd manat güzəştli kredit verilmişdir.

"Azərbaycan İnvestisiya Şirkəti" (AİŞ). AİŞ yerli və xarici investisiyalarla bərabər, neft və qaz sənayesi istisna olmaqla, əsaslı kapital qoyuluşları vasitəsilə digər sektorların inkişafına dəstək verir.

"Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu" (AZPROMO). Bu fond təşviq və təlim fəaliyyətləri ilə bərabər, kiçik və orta sahibkarlıq subyektlərinə beynəlxalq satış yarmarkalarında iştirak üçün vəsaitlər ayırır, həmçinin qeyri-neft sektorundan olan kiçik və orta sahibkarlara maliyyə vəsaitləri əldə etməyə də kömək edir.

"Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Kənd Təsərrüfatı Layihələri və Kreditlərinin İdarə Edilməsi üzrə Dövlət Xidməti". Bu xidmətin illik 2 % dərəcəsi ilə verdiyi kreditdən istifadə edərək, müvəkkil banklar 5 %-dən çox əlavə dərəcəsi tətbiq etmədən müxtəlif sahibkarlara və fermerlərə güzəştli kreditlər ayırırlar.

"Azərbaycan Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin tabeliyində İnformasiya Texnologiyalarının İnkişafı Dövlət Fondu". Bu fond 300 min manata kimi olan qrantların ayrılması ilə ən yüksək texnologiyalar tətbiq edən startupların maliyyələşdirilməsini həyata keçirir.

Sahibkarlıq sektorunda çalışanlar Sahibkarlığın İnkişafı Fondu tərəfindən verilmiş güzəştli kreditlərin çox hallarda əlçatmaz olduğunu da vurğulayırlar. Bunu

isə müxtəlif səbəblərlə izah edirlər. Ancaq əsas faktor kimi həm fondun daxilində, həm də müvəkkil banklar tərəfindən çox ciddi bürokratik əngəllərin olması qeyd olunur. Kredit verən müxtəlif təşkilatlar isə mövcud prosedurların kreditlərin verilməsində risklərdən maksimal dərəcədə sığortalanmaq məqsədi daşıyırlar.

Kiçik və orta sahibkarığın maliyyə çatışmazlığı problemini müxtəlif ölkələrdə uğurla sınaqdan çıxarılan lizinq xidmətləri vasitəsilə həll etmək mümkündür. Belə ki, lizinq xidmətlərini ənənəvi bank kreditindən fərqləndirən üstün cəhəti sahibkarlardan heç bir girovun tələb edilməməsidir. Başqa bir üstünlük isə təklif edilən maliyyənin təchizat xərclərini tam olaraq ödəməsidir.

8. Fiziki infrastruktur: Müəssisənin davamlılığı və insan inkişafı nəqliyyat sistemləri, məktəb və xəstəxanaların fiziki imkanları kimi mövcud olan fiziki infrastrukturun keyfiyyətindən və miqdarından asılıdır. Xüsusilə də inkişafda olan ölkələrdə enerjiyə və suya etibarlı və əlverişli çıxış böyük bir problemdir. Müəssisələr, xüsusilə də xidmət təminatçıları, maşın tədarükçüləri və istehsalçıları sənaye sahələrinə yerli girişi təmin edir.

9. Təhsil, təlim və həyat boyu öyrənmə: Aparılan araşdırmalar nəticəsində, çox sayda iri və orta sahibkarlar ciddi kadrların çatışmazlığı ilə gileylənirlər. Bu vəziyyəti onlar ali təhsilli və təcrübəli kadrların azlığı və olanların da, əsasən Bakıya və xarici ölkələrə getməsilə əlaqələndirirlər. Təcrübəli mütəxəssislərin daha çox iri şəhərlərə və ölkələrə getmələrinin səbəbləri isə aldıqları məvacibin çox aşağı olması, eləcə də iş yerlərinin çatışmazlığı və bəzi bölgələrdə inkişaf perspektivinin daha zəif olması ilə əlaqələndirilir.

Son illərdə “Beyinlərin köçü” olaraq ifadə olunan bu prosesin daha sürətlə artdığı müşahidə edilməkdədir. Və nəticədə, sahibkarlar ehtiyac duyduqları mütəxəssisləri tapa bilmir və yaxud da təcrübəsiz kadrları işə götürməyə məcbur olurlar. Bu da biznes mühitinin inkişafında mənfi təsirlərə yol açır. Hətta, onu da qeyd etmək lazımdır ki, müxtəlif sahələr üzrə iş quran  bəzi sahibkarlar onlara lazım olacaq kadrları yenidən hazırlamaq məcburiyyətində qalırlar. Belə ki, onlar müəyyən bir ixtisas üzrə təhsilə malik gəncləri işə götürüb, onları Bakıya və yaxud hər hansı xarici bir ölkəyə ixtisas artırma təlimlərinə göndərirlər. Bu isə, öz

növbəsində sahibkara həm maliyyə, həm də vaxt baxımından çox ciddi çətinliklər yaradır. İnsan istedadı indiki iqtisadiyyatda ən vacib məhsuldar amildir. Təcrübəli işçi qüvvəsinin inkişafına, yüksək keyfiyyətli təhsil, təlim və həmçinin həyat boyu müxtəlif öyrənmə sistemləri vasitəsilə insan potensialının genişləndirilməsinə diqqət yetirməklə işçilərə müvafiq iş tapmaq və müəssisələr üçün ixtisaslı və savadlı qadın işçilərinin hazırlanmasına da ehtiyac var. Zəif işçilərin təhsil, təlim və bacarıqlarının artırılması üçün isə maliyyə dəstəyi təmin edilməlidir. Təhsil sistemi üçün yüksək ixtisaslı elmi-pedaqoji kadrlar hazırlanmasına xüsusi diqqət yetirilməlidir. Ölkədə təhsilin və elmin inkişafının elmi əsaslarla qurulması prinsipi ardıcıl olaraq davam etdirilməlidir. Ancaq bu halda, cəmiyyət iqtisadi uğurun və sosial tərəqqinin əkiz məqsədlərinə nail ola bilər.

10. İnformasiya və kommunikasiya texnologiyaları: İnformasiya və kommunikasiya texnologiyalarına (İKT) çıxış imkanlarının genişləndirilməsi informasiya iqtisadiyyatı dövründə daha mühüm bir çağırışdır. İKT sahəsində olan informasiya məhsullarının mövcudluğu ümumilikdə informasiya bazarının yaranmasına gətirib çıxarır. İnformasiya məhsulu isə elə məhsuldur ki,o yalnız ayrı-ayrı istehlakçılara deyil, həm də bütün bəşər cəmiyyəti üçün mühüm əhəmiyytə malikdir. Buna görə də, İKT-lərin istifadəsi müəssisələrin inkişafı üçün vacibdir və bu baxımdan tam şəkildə istifadə olunmalıdır. Bundan başqa, əlverişli geniş “band” texnologiyası da ölkələr və ayrı-ayrı müəssisələr üçün xeyli dərəcə əhəmiyyətlidir və asanlaşdırılmalıdır.

11. Sosial ədalət və sosial inteqrasiya: Bərabərsizlik və ayrı-seçkilik davamlı müəssisələrin inkişafı ilə ziddiyyət təşkil edir. Cinslər cəmiyyətlərdə çox əhəmiyyətli bir bərabərlik ölçüsüdür. Azərbaycan sahibkarlıq mühitində qadın sahibkarlığının inkişafına əngəl törədən bir sıra maneələr hələ də qalmaqdadır. Buraya qadınların rolu ilə bağlı olan ənənəvi gender stereotipləri, qadınların sahibkarlıq fəaliyyətilə bağlı kifayət qədər məlumatları olmaması,həmçinin sahibkarlıq fəaliyyətinə başlamaq üçün lazım olan ilkin kapitalın olmaması kimi baryerləri daxil etmək olar.

Gender əsaslı məhdudiyyətlərin aradan qaldırılması ölkədə qadınların biznes sahibləri kimi potensiallarını həyata keçirmələrinə yardımçı olar və beləliklə ölkədə sahibkarlığın inkişafına, eləcə də vergi ödəyicilərinin bazasının genişlənməsinə gətirib çıxara bilər. Gender əsaslı çətinliklər özəl sektorda qadınların gəlirli və sabit məşğulluq imkanlarını məhdudlaşdırmaqla ictimai səhiyyə sistemi, milli sosial təminat mexanizmləri və yoxsulluğun azaldılması üçün gələcəkdə bir çox maneələrin yaranmasına səbəb ola bilər. Qadınlar, inkişafın yoxsulluğa səbəb olma qabiliyyətinə ciddi təsirləri olan aktivlər və inkişaf prosesinə qoşulma ilə bağlı xüsusi maneələrlə üzləşirlər.

Azərbaycanda qadın sahibkarlığının inkişaf etdirilməsi hal-hazırda ən aktual məsələlərdən biridir. Sahibkarlığa Kömək Milli Fondunun (SKMF) vəsaiti hesabına 2017-ci ildə əhalinin həssas qruplarına, o cümlədən gənclərə, qadınlara, məcburi köçkünlərə kömək məqsədilə güzəştli kredit vəsaiti ayrılıb. Bu məqsədlə 265 gənc sahibkarlıq subyektinə 30.8 milyon manat, 260 qadın sahibkarlıq subyektinə 6.4 milyon manat və 84 məcburi köçkün sahibkarlıq subyektinə 1.3 mln. manat güzəştli kredit verilmişdir. Bu kreditlər hesabına 1933 yeni iş yerlərinin yaradılması imkanı yaranmışdır.

Qadın sahibkarlığının inkişafı ölkədə yoxsulluğun azaldılmasına, məşğulluğun təmin olunmasına və xüsusilə, cəmiyyətdə gender bərabərsizliyinin də aradan qaldırılmasına kömək edir. Ölkəmizdə qadınların sahibkarlıq fəaliyyətilə məşğul olmaları üçün daha da əlverişli mühit yaradılacaq. Bu barədə Azərbaycan Prezidentinin 2016-cı ilin 6 dekabr tarixli fərmanı ilə təsdiq edilən “Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi”ndə bildirilir ki, 2017-ci ildə Azərbaycanda qadın sahibkarlar üçün nəzərdə tutulan kreditləşmə, vergitutma və digər güzəştləri özündə ehtiva edən stimullaşdırıcı mexanizmlərin işlənib hazırlanması olduqca vacibdir və bu qadın sahibkarların inkişafına güclü təkan verər. Bu mexanizmlər qadınların iqtisadi təşəbbüskarlığının həyata keçirilməsi imkanlarını əhəmiyyətli dərəcədə artırmışdır. Bu mexanizmlər hazırlanan zaman, xüsusilə də kənd yerlərində qadınların məşğulluğu məsələsi əsas diqqət mərkəzində olmuşdur.

Qadın məşğulluğunun kənd yerlərində daha perspektivli istiqamətləri müəyyənləşdirilərək müvafiq tədbirlər görülmüşdür. Bundan başqa, qadın sahibkarlığına dəstək məqsədilə qadın biznes inkubatorlarının yaradılması da nəzərdən keçirilir. Bu inkubatorların yaradılması və inkişafı ölkəmizdə qadınların sahibkarlıq təşəbbüsünün dəstəklənməsi və yeni biznes imkanlarının yaradılması baxımından çox əhəmiyyətlidir. Həmçinin qadın sahibkarlığı sahəsinə xarici investisiyaların cəlb olunması da maliyyələşmə üçün əlavə imkanlar yaradacaqdır.

2017-ci ildə qadın sahibkarlığının inkişafı üçün qadın sahibkarlar assosiasiyaları və peşə təşkilatları yaradılmışdır. Bu assosiasiyaların yaradılması nəticəsində ölkəmizdə qadınların sahibkarlıqla məşğul olmaları üçün əlverişli mühit yaranacaq və KOS-lar arasında qadınların sayı xeyli artacaq. Bu fəaliyyətlər, eyni zamanda məşğulluq göstəricilərində qadınların payının artmasına öz müsbət təsirini göstərəcək.

Qadın sahibkarlığının daha da sürətli inkişafı, yüksək ixtisaslı və savadlı qadın işçi qüvvəsinin daha da çox cəlb olunması milli iqtisadiyyatın idarə olunmasında özəl sektorların potensialını artırmaq üçün zəruridir. Həm dövlətin, həm də özəl sektorun iştirakçıları qadınların iqtisadi cəhətdən təmin edilməsi, layiqli işlərdə işləməsi, eyni zamanda sahibkarlıq fəaliyyətilə məşğul olması və müxtəlif cəmiyyətlərə inteqrasiya etməsi üçün öz səylərini daha da gücləndirməlidir.

12. Möhkəm və stabil makroiqtisadi siyasət və iqtisadiyyatın yaxşı idarə edilməsi: Sabit makroiqtisadi siyasət əlverişli biznes mühitini təmin edən əsas amillərdən biridir. Ona görə ki, o sahibkarlıq fəaliyyətində riskləri azaldır və eləcə də investisiya qərarlarının qəbulu üçün müəyyən proqnozlaşdırmalar aparmağa imkan verir.

Makroiqtisadi sabitlik iqtisadi artım üçün ən vacib amil hesab edilir. Makroiqtisadi sabitlik azalan dövlət borcunun səviyyəsi, birrəqəmli kəmiyyətlə ifadə olunan inflyasiya, həmçinin adambaşına düşən Ümumi Daxili Məhsulun (ÜDM) getdikcə artması şəraitində dövlət büdcəsinin dayanaqlılığı kimi tərif edilə bilər. İqtisadi göstəricilərin davamlı olaraq yaxşılaşması makroiqtisadi sabitliyin ən

önəmli şərtidir. ÜDM-in getdikcə aşağı düşməsi eyni zamanda bazarların durğunluğundan xəbər verir. Qiymətin hədsiz yüksək olduğu bir şəraitdə biznes sahələri düzgün fəaliyyət göstərə və yaxşı mənfəət əldə edə bilmirlər. Qiymət artımları kiçik biznesi məhv edə bilər. Ümumiyyətlə uzunmüddətli iqtisadi artıma nail olmaq güclü və sabit makroiqtisadi mühitin olması zəruridir.

Bundan başqa inflyasiya da çox əhəmiyyətli bir amildir. İnflyasiya – ölkədəki mal və xidmətlərin satın aldığımız qiymətinin müntəzəm olaraq artım göstərməsidir. Sürətli inflyasiya təsərrüfata, kiçik biznesə, hətta iri korporasiyalara ciddi iqtisadi zərər vurur. Üstəlik, effektiv makroiqtisadi siyasətin aparılmasını da çətinləşdirir.

Pul, maliyyə və məzənnə siyasəti stabil və qabaqcadan müəyyən edilə bilən iqtisadi vəziyyətə zəmanət verir. Möhkəm iqtisadi idarəetmə inflyasiyaya qarşı mübarizə apardığı zaman daha çox və daha keyfiyyətli işlərin yaradılması, həmçinin stimullaşdırıcı siyasət, uzunmüddətli məhsuldar investisiya və onun qaydalarının təmin edilməsi üçün məqsədlər balanslaşdırmalıdır. Milli şəraitə zəmanət verən iqtisadi artım mənbəyi kimi məcmu tələbin artmasına diqqət yetirilməlidir. İnkişafda olan ölkələrin vəziyyətində sağlam bir makroiqtisadi şəraitə nail olmaq, borc azadlığı və rəsmi inkişaf yardımı ilə beynəlxalq ictimaiyyətin həlledici dəstəyini tələb edir.

13. Ticarət və dayanıqlı iqtisadi inteqrasiya: Baha başa gələn və mürəkkəb ticarət prosedurları, eləcə də yüksək nəqliyyat xərcləri idxal və ixrac fəaliyyəti üçün çox ciddi çətinliklər yaradır və bunun nəticəsində də ixrac məhsullarının rəqabət qabiliyyəti getdikcə azalır, idxalın qiyməti artır. İdxal olunan malların bir çoxu üçün müxtəlif dövlət qurumlarının da razılıqlarının alınması tələb edilir. Digər tərəfdən, ixrac edilən məhsullar üçün beynəlxalq səviyyədə tanınmış sertifikatların alınmaması bu məhsulların əsas dünya bazarlarına daxil olmasına əngəl olur. Standartlaşdırma və sertifikatlaşdırma tələbləri xarici ticarətin inkişafını çətinləşdirir. Bundan əlavə icra orqanlarında mövcud bürokratiya, o cümlədən xarici ticarətlə əlaqədar müxtəlif logistika və inzibatçılıq sahələrində zəif rəqabət bu cür prosedurları daha da mürəkkəbləşdirir.

Xarici ticarətin sadələşdirilməsi üçün bir çox mühüm dövlət islahatları həyata keçirilməkdədir. Buna Azərbaycan sahibkarlarının ticarət əməliyyatlarının elektron formada aparılması üçün xarici ölkələrlə elektron imzaların qarşılıqlı olaraq tanınması istiqamətində addımların atılması, gömrük prosedurlarında "vahid pəncərə" prinsipinin tətbiqi, elektron xidmətlərin həyata keçirilməsinə imkan verən "Azərbaycan Rəqəmsal Ticarət Qovşağı" bölməsinin yaradılmasını misal göstərmək olar.

Ticarət təhriflərini aradan qaldırmaq, inkişafda olan ölkələrə dəyərli məhsullar ixrac etmək, dəyişiklikləri idarə etmək və rəqabətqabiliyyətli sənaye bazasını inkişaf etdirmək imkanlarını artırmaq üçün regional və çoxtərəfli səviyyədə tədbirlərin həyata keçirilməsi zəruridir.

14. Sosial dialoq: Ölkəmizdə öz işçiləriylə əmək müqaviləsi bağlamayan kifayət qədər müəssisə var. Əmək müqavilələrinin bağlanılması və işçilər arasındakı sosial dialoqun qurulması məsələlərində bir çox boşluqlar mövcuddur. Birləşmək azadlığı və kollektiv danışıqlara əsaslanan sosial dialoq hökumətlərin, işəgötürənlərin, işçilərin və cəmiyyətin qarşılıqlı faydalı nəticələrini əldə etmək üçün çox vacibdir.

### 3.2. Biznes mühitinin müasir çağırışlara qarşı dayanıqlılığının artırılması yolları

2014-cü ilin axırlarından etibarən dünya bazarlarında neftin qiyməti ucuzlaşdı və bunun mənfi təsirləri Azərbaycan iqtisadiyyatında bir müddət sonra müşahidə edilməyə başladı. Belə ki, ölkədə xarici valyuta gəlirlərinin azalması müşahidə olundu, ABŞ dollarının məzənnəsi milli valyutaya qarşı iki dəfəyə yaxın bahalaşdı, maliyyə sabitliyinin təmini üzrə bir çox risklər formalaşdı, dövlət borcunun ödənilməsi üzrə fiskal yükü artdı. Buna görə də ölkədə iqtisadi aktivliyin yenidən bərbası üçün Azərbaycan hökuməti iqtisadi siyasətin daha da yaxşılaşdırılması və qəbul edilmiş islahatların sürətləndirilməsi məqsədilə bir çox tədbirlər görmüşdür.

Dünyada cərəyan edən müxtəlif proseslərin yaratdığı yeni və müasir çağırışlara uyğunlaşmaq, eləcə də mövcud qlobal iqtisadi böhranın mənfi təsirini minimuma endirmək məqsədi ilə Azərbaycanda elmi cəhətdən əsaslandırılan sistemli iqtisadi islahatlar həyata keçirilmişdir. Ölkəmizdə həyata keçirilən iqtisadi siyasət və islahatların davamlılığının təmin edilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 16 mart tarixli Sərəncamı ilə "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri" təsdiq edilmişdir. Bu sərəncama əsasən, milli iqtisadiyyat və 11 sektor üzrə strateji yol xəritələri hazırlanaraq Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 06 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir. (http://www.e-qanun.az/framework/34254)

Strateji yol xəritələrinin ölkənin iqtisadiyyatının rəqabətqabiliyyətli və həmçinin dayanıqlı inkişafının təmin edilməsində müsbət təsiri çox yüksəkdir

Son illərdə ölkəmizdə iqtisadi aktivliyin bərpa edilməsi və institusional islahatların sürətləndirilməsi məqsədilə iqtisadi siyasətin təkmilləşdirilməsi istiqamətində fəaliyyət dərinləşdirilmişdir. İqtisadiyyatın inkişafı, biznes və investisiya mühitinin yaxşılaşdırılması, sahibkarlar üçün daha əlverişli imkanların yaradılması və onlara dövlət dəstəyinin gücləndirilməsi, həmçinin qeyri-neft məhsullarının ixrac potensialının artırılması istiqamətində bir çox mühüm tədbirlər reallaşdırılmışdır.

"Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən, 2015-ci il 1 noyabr tarixindən etibarən sahibkarlıq sahələrində aparılan yoxlamalar 2 il müddətinə dayandırılmış, daha sonra isə 2017-ci ilin noyabr ayında isə yoxlamaların dayandırılması ilə bağlı bu müddət 2021-ci ilə yanvarın 1-dək uzadılmışdır. Bu Qanuna əsasən, bəzi istisna sahələr də var ki, orada yoxlamaların aparılması vacibdir. Dəyişiklik həmin sahələrin dairəsinin nisbətən genişləndirilməsini də nəzərdə tutur. Dəyişikliyə əsasən, bundan sonra bütün dərman vasitələrinin və qida məhsullarının keyfiyyətinə və təhlükəsizliyinə nəzarətin həyata keçirilməsilə bağlı müxtəlif yoxlamalar da aparıla biləcək.

Ümumiyyətlə, hal-hazırda informasiya kommunikasiya texnologiyalarından müxtəlif iqtisadi fəaliyyət sahələrində çox geniş miqyasda istifadə olunması təsərrüfat münasibətlərində ciddi dəyişikliklərə səbəb olmuşdur. Bu isə rəqəmsal biznes mühitinin formalaşmasına, həmçinin elektron ticarətin təkmilləşdirilməsinə əlverişli zəmin yaradır. Ölkəmizdə elektron ticarətin infrastruktur bazasının getdikcə inkişaf etdirilməsi və Azərbaycanın regionda rəqəmsal ticarət qovşağı kimi mövqeyinin daha da gücləndirilməsi məqsədilə Azərbaycanın Rəqəmsal Ticarət Qovşağı yaradılmışdır. Belə ki, bu qovşağın ən böyük üstünlüyü sahibkarlarla xarici tərəfdaşların əlaqələri asanlaşdırılır, ölkədə ixrac potensialının daha da yüksəldilməsinə müsbət təsir göstərir, vaxta və pula qənaət etmələrinə səbəb olur, eləcə də elektron kommersiyanın əhatə dairəsinin genişləndirilməsinə şərait yaradır.

Elektron ticarət hal-hazırda dünyada geniş yayılan biznes mübadiləsinin ən əsas tərkib hissəsinə çevrilmiş və informasiya texnologiyalarının sürətli inkişafı internet üzərindən aparılan bütün əməliyyatların həcminin ilbəil daha da artmasına səbəb olmaqdadır. Elektron ticarət vasitəsilə aparılmış əməliyyatlar birbaşa biznes təyinatlı olduğuna görə, bu sahədə vergi tətbiqi çox mühüm əhəmiyyət kəsb edir. Belə ki, biznes əməliyyatları vergitutma obyekti hesab edilir və vergilər qanunvericiliyə uyğun qaydada hesablanmalıdır. Avropa İttifaqı ölkələrində güzəştli vergi sisteminin elektron ticarətin vergiyə cəlb olunması tətbiq edilməsi nəzərdə tutulmayıb. Avropa ölkələrinin elektron ticarətin vergiyə cəlb edilməsilə bağlı ümumi qənaəti belədir ki, burada vergilər digər vergitutma obyektlərindəki kimi hesablanmalı və ənənəvi metod və üsullara uyğun yığılmalıdır.

Ölkəmizdə elektron ticarətin vergiyə cəlb edilməsi üçün qanunvericiliyin təkmilləşdirilməsi zəruridir. Ümumilikdə, qanunvericilik aktlarının Avropanın qanunvericiliyinə uyğunlaşdırılmalı, veb-saytlara nəzarətin gücləndirilməli, elektron təhlükəsizliklə bağlı olan aidiyyəti qurumlarla səmərəli şəkildə əməkdaşlıq artırılmalı, inzibatçılıqla bağlı əlavə tədbirlər görülməlidir. Xüsusilə də onlayn əməliyyatların daha dərindən analiz edilməsi və bu sistemdəki təhlükəsizlik məsələləri çox mühüm yer tutur. Bundan başqa, istehlakçı hüququnun daha da

etibarlı qorunması əsas şərtlərdən biridir. Avropada ümumi yanaşma belədir ki, elektron ticarətlə qanunsuz olaraq məşğul olan sahibkarlara qarşı sərt şəkildə cərimələr sistemi tətbiq edilməlidir. Elektron ticarət zamanı müxtəlif saytlardan əmtəə sifariş edərkən istehlakçı hüququnun qorunmasına dövlət təminatı artırılmalıdır.

Ümumiyyətlə, vergi ödəyicilərinin hüquq və mənafelərinin daha etibarlı qorunmasını təmin edərək, sahibkarların şikayət və müraciətlərinin məhkəmə prosesinə girmədən həllinə nail olmaq və vergi administrasiyaları ilə münasibətlərin tənzimlənməsinə kömək göstərmək üçün vergi məsələləri üzrə ombudsman fəaliyyət göstərməlidir. Bu cür bir qurumun fəaliyyətə başlaması ölkənin vergi sisteminə bir çox fayda verə bilər. Əvvəla, vergi ödəyicilərinin hüquqlarının daha etibarlı qorunması baxımından aparılan bütün işlərə öz töhfəsini verərək vergi orqanlarının işini xeyli yüngülləşdirə bilər. Eləcə də, vergi ödəyicilərinin intizamının gücləndirilməsi və vergiləri vaxtında, tam şəkildə ödəməsi baxımından bu ombudsmanın rolu böyükdür. Avropa ölkələrinin əksəriyyətində vergi ombudsmanının cəmiyyətdəki nüfuzu və peşəkarlığının olması ona olan inamı artırır. Dövlətin özünün də ombudsmanlardan gözləntiləri çoxdur. Ombudsmanın başlıca məqsəd və vəzifəsi sahibkarların hüquq və öhdəliklərini yerinə yetirmək, dövlətin müəyyən etdiyi qanunların bütün tələblərinə riayət etmək, eləcə də dövlət büdcəsinə vergilərin vaxtı-vaxtında ödənilməsi üçün onların məsuliyyətlərini başa salmaq və müxtəlif məsləhət və tövsiyələr verməkdir. Ödəyicilərlə aparılan söhbətlərdə onlara vergilərin ödənilməsi və vergidən yayınmanın sahibkarların özünə hansı pis nəticələrə gətirib çıxarması düşüncəsi də aşılanmalıdır.

Ölkədə hal-hazırda fəaliyyət göstərən Ombudsman Aparatının tabeliyində şöbə və ya departament yaradılması daha məqsədə uyğundur. Ona görə ki, müstəqil fəaliyyət göstərən Vergi Ombudsmanı institutunun təsis edilməsi bir çox baxımdan məqsədə uyğun deyil. Müstəqil qurumun yaradılması üçün ona işçilər və kadr bazası lazımdır. Bu da qurumun saxlanmasına və idarə edilməsinə dövlətin əlavə xərc çəkməsi deməkdir. Bu, hər il dövlətin inzibati və texniki xərclərilə

yanaşı, idarəetmə sistemində müxtəlif problemlərlə yüklənməsinə də səbəb ola bilər. Buna görə də Avropa ölkələrinin mövcud təcrübəsinin öyrənilməsi və tətbiq olunması lazımdır. Ölkəmizdə də uzun zamandır ki, Ombudsman Aparatı yaradılıb, lakin onun fəaliyyətinin daha da təkmilləşdirilməsi üçün tərkibində vergi məsələləri üzrə bir şöbə yaratmaqla problemi həll etmək olar. Eyni zamanda, Avropa ölkələrində olduğu kimi, müvafiq qanunvericilik aktlarına da bir sıra dəyişikliklərin edilməsi zəruridir.

Beynəlxalq təcrübəyə görə, müxtəlif ölkələrdə kiçik biznes üçün sadələşdirilmiş vergi sistemi tətbiq olunur. Respublikamızda da kiçik biznesin davamlı inkişafı üçün sadələşdirilmiş vergi sisteminin tətbiqi davam etdirilməlidir. Xüsusilə də regionlarda kiçik biznes obyektləri rəqabətqabiliyyətli olmalı və məşğulluq problemi də tam həll olmalıdır. Lakin kiçik biznes üçün nəzərdə tutulmuş sadələşdirilmiş vergi rejimindən istifadə edərək bir çox iqtisadi fəaliyyət növləri üzrə sadələşdirilmiş vergi ödəyiciləri kimi qeydiyyatda durmaqla vergidən yayınma halları vergi orqanlarının xüsusi nəzarəti altında olmalıdır. Bu baxımdan ölkədə kiçik biznes müəssisələrini daha aşağı vergi dərəcəsilə vergiyə cəlb edib uçota almaq qərarı iqtisadi fəaliyyət növü və xidmət sahəsi kimi əsas parametrlər əsasında qəbul edilməsi daha məqsədə uyğundur.

Ölkənin ümumi fəaliyyəti və rəqabətə davamlılığı əsasən yaxşı inkişaf etmiş nəqliyyat şəbəkəsi, o cümlədən geniş rəqəmsallaşma və özündə innovasiyanı ehtiva edən fiziki infrastruktura əsaslanır. Buna görə də hökumət geniş sosial-iqtisadi hədəfləri nəzərə almaqla yanaşı, aktiv biznes mühitini müəyyənləşdirən faktorlara da ciddi diqqət yetirməsi çox mühüm əhəmiyyətə malikdir.

Makroiqtisadi mühitin və valyuta məzənnəsinin dəyişkənliyi ilə əlaqədar son çətinliklərə baxmayaraq, Azərbaycan infrastrukturunu təkmilləşdirərək, diqqət mərkəzini ölkənin əlverişli biznes mühitinin yaxşılaşdırılması üzərində saxlamaq fikrindədir. Ölkəmizin nəqliyyat və regional logistika mərkəzi kimi mövqeyini inkişaf etdirməsi məqsədilə hökumət Azərbaycanın müxtəlif regionlarını birləşdirən və müasir rabitə obyektlərini genişləndirən dəniz limanları və dəmiryolları ilə bağlı layihələrə investisiya qoymağı da planlaşdırır.

Texnologiyanın sürətlə inkişaf etdiyi dövrdə investisiya üçün daha da əlverişli biznes mühitinin yaxşılaşdırılması əsasında səmərəli rəqəmsal infrastruktur, inkişaf və tədqiqat üçün əlverişli şəraitin və yeni texnologiyanın tətbiqi dayanır. Tarixən, dövlət sektoru ölkədəki infrastruktur investisiyalarının böyük bir hissəsini öz üzərinə götürmüşdür. Bu sahədə də dəyişiklik olması çox vacibdir. İnfrastruktur investisiyalarındakı müxtəlif çatışmazlıqları aradan qaldırmaq üçün hökumət cəlbedici investisiya və daha aydın siyasət imkanları vasitəsilə xarici investorlardan və özəl sektordan daha böyük maliyyə səfərbər etməlidir.

Kiçik və orta müəssisələrin yerli və qlobal bazarda rəqabətqabiliyyətliliyinin gücləndirilməsi hazırda bir çox dünya dövlətləri və institutlarının iqtisadi strategiyalarının hədəfindədir. Ümumiyyətlə kiçik və orta sahibkarlığın davamlı inkişafına əngəl olan ən mürəkkəb amillərdən biri də biznesin maliyyə resurslarına əlçatanlığının nisbətən zəif olmasıdır. Müəssisələrin rəqabətliliyinə bir çox sistematik və qeyri-sistematik faktorlar təsir göstərir ki, onların müəyyən olunması və təhlili bu hədəf üçün önəmlidir.

Kiçik və orta müəssisələrin maliyyə vəziyyətindəki çətinliklər onların davamlı inkişafına mənfi təsir göstərən əsas amillərdən olmuşdur. Azərbaycanda biznes mühitini qiymətləndirən beynəlxalq qurum və yerli təşkilatlar KOS-ların öz bizneslərini inkişafı üçün tələb olunan maliyyə resurslarını cəlb etməkdə çətinlik çəkdiklərini vurğulayırlar. Sahibkarların bir qismi maliyyə tələbatlarını daxili imkanlar hesabına həll etmək üçün çalışsalar da, xarici mənbələrə də müraciət edənlər az deyil.

Beynəlxalq təcrübədə geniş yayılmış maliyyə mənbələrindən biri də vençur kapitalıdır. Vençur kapitalı, bazarda yeni yaranmış və inkişaf etmək istəyən firmaların maliyyələşdirilməsi üçün müəyyən vəsaitin investorlar tərəfindən yatırılmasıdır. Vençur biznesinin mahiyyəti isə yüksək riskli innovasiya layihələrinə, kiçik və yeni şirkətlər tərəfindən aparılan müəyyən bir riskli, ancaq perspektivli xarakter daşıyan müxtəlif yeniliklərin tətbiq edilməsinə sərmayə yatırmaqdan ibarətdir. Bu firmaların maliyyələşdirilməsinə dövlət büdcəsindən deyil, vençur kapitalisti tərəfindən vəsait ayrılır. Bu tip investisiya qoyuluşları

adətən yeni və yaxud müflis olmaq təhlükəsilə üzbəüz qalan müəssisələrin inkişafı üçün həyata keçirilir. Sonda vençur sərmayəsi çox yüksək gəlirlər gətirən investisiyalardır.

Banklar və kredit qurumları əsasən kredit riskinin az olduğu sahələrə üstünlük verirlər. Ona görə də startapların və kiçik şirkətlərin kreditlərdən istifadə etmə imkanı həmişə məhduddur. İnnovasiya prosesində vençur kapitalından istifadə, prinsipial əhəmiyyət kəsb edən bir amildir. Vençur kapitalı müvafiq maliyyə alətləri vasitəsilə yüksək riskli layihələrin dəstəklənməsində iştirak edir. Məsələn, kompüter texnologiyalarında çox ciddi müvəffəqiyyət qazanmış şirkətlərin çoxu vençur kapitalının hesabına maliyyələşdirilmişdir.

İnkişaf etmiş ölkələrdə kiçik innovasiya müəssisələrinin vençur maliyyələşdirilməsi ixtisaslaşmış maliyyə qurumları vasitəsi ilə həyata keçirilir. Bu məqsədlə müxtəlif qaynaqlardan məsələn, iri korporasiyaların vəsaitləri, banklar, pensiya və xeyriyyə fondları, şəxsi əmanətlər, sığorta şirkətlərinin fondlarından istifadə edərək innovasiya müəssisələrini maliyyələşdirmək üçün Vençur Kapitalı Şirkətləri formalaşdırılır. Vençur Kapitalı Şirkətləri təklif olunan məhsulu həyata keçirmək üçün qurulacaq olan startapa hissə sənədləri qarşılığında müəyyən maddi dəstək verir və məhsul hazırlayan şəxs və yaxud qrupa (layihə sahibi) ortaq olur. Vençur Kapitalı Şirkətlərinin ölkənin iqtisadiyyatı baxımından ən önəmli funksiyası, yaxşı fikirə sahib çıxır və bu fikirdən uğurlu şirkət yarada bilər. Həmçinin, yeni fikirlərin həyata keçirilməsində köməkçi vasitə olaraq yaradıcılıq, innovasiya və startap mədəniyyətinə təşviq edir.

Azərbaycanda da kifayət qədər tanınan və ənənəvi biznes sahələrində çalışan müxtəlif investorlar var. Bu investorlar ilk növbədə bir Vençur Şirkəti yaratmalı və birlik halında toplanmalıdırlar. Onlar yerli startaplara yatırım edib, həm ölkənin inkişafına, həmçinin də öz kapitallarını artırmağa nail ola bilərlər.

Ölkəmizdə fəaliyyət göstərən KOS-lar dünyada geniş yayılan maliyyələşmə mənbələrindən olan bank kreditlərinə üstünlük verirlər. Lakin kredit faizlərinin yüksək olması, onlardan tələb edilən məbləğin əldə edilməsinin çətinliyi, biznes kreditləri üçün bankların qoyduğu sərt girov sistemləri, təcrübənin olmaması

üzündən bankların diqqətini çəkən biznes-plan hazırlaya bilməmələri, kredit mənbələri və şərtləri haqqında sahibkarların lazımi informasiyaya malik olmamaları, güzəşt müddətlərinin az olması KOS-ların bank kreditlərindən istifadə etmələrinə əngəl olan ən əsas amillərdəndir. Mərkəzi banklar və digər dövlət qurumları da kommersiya bankarını KOM-larla əməkdaşlığa təşviq etməlidirlər. KOM-ların maliyyə mənbələrinə çıxışının təmin edilməsi üçün müvafiq dövlət siyasəti müəyyən edilməlidir. Bu siyasətə əsasən mərkəzi banklar müxtəlif borc alanlar üzrə banklardan kredit portfellərinin açıqlanmasını tələb edə və zəmanət proqramları vasitəsilə bankların üzləşdiyi riskləri azalda bilərlər.

Bundan başqa alternativ mənbələrdən olan qiymətli kağızlar bazarından da maliyyə cəlb etmək təcrübəsi kiçik və orta müəssisələrdə yoxdur. Ümumiyyətlə, Azərbaycanda qiymətli kağızlar bazarının inkişafı və KOS-ların bazara çıxışının stimullaşdırılması üçün ölkənin qanunvericilik bazası təkmilləşdirilməlidir. Hökumət kiçik biznesin dəstəklənməsi məqsədilə mikromaliyyələşmə proqramı həyata keçirməli, lizinq, françayzinq, faktorinq kimi xidmətlərin geniş yayılması üçün güzəştlər sistemi və normativ aktların hazırlamalıdır.

Şirkətlərin çoxunun qiymətli kağızlarla işləmək ənənəsi olmaması onların bazara daxil olmasına heç cür imkan vermir. Həmçinin şirkətlərin çoxu uzunmüddətli dövr üçün borclanmaq istəmədikləri üçün qiymətli kağızlar bazarına daxil olmağı üstün tutmurlar. Baxmayaraq ki, kreditlərin çox yüksək faizlə təklif edildiyi zamanda ucuz vəsaitlərin cəlb edilməsi, o cümlədən biznesin genişləndirilməsi üçün istiqrazların buraxılması əsas yollardan biridir. Kiçik və orta sahibkarların kapital bazarları vasitəsilə özlərinə maliyyə cəlb etmələri üçün ölkənin biznes sektorunun məlumatlandırılmasına, eyni zamanda fond bazarının inkişafına da ehtiyac var.

Beynəlxalq təcrübədə də olduğu kimi ölkəmizdə kiçik və orta sahibkarların inkişafı və maliyyələşməsi üçün dövlət dəstəyini təmin edən müxtəlif təsisatlar fəaliyyət göstərir - “Sahibkarlığın İnkişafı Fondu”, “Kənd Təsərrüfatı Kreditləri üzrə Dövlət AAgentliyi, “İnformasiya Texnologiyalarının İnkişafı Dövlət Fondu”, “Azərbaycan İnvestisiya Şirkəti” və s. Bu qurumların verdikləri kreditlər dövlət

büdcəsindən ayrılmış vəsaitlər hesabına təmin edilir. Həmçinin bu təsisatların verdiyi kreditlər güzəştli kateqoriyasına malikdirlər və bazar səviyyəsindən xeyli ucuzdur.

Bundan başqa, rəqabət şəraitində kiçik və orta sahibkarlıq subyektlərinin rəqabətə davamlılığını təmin etmək, həmçinin, xammal əldə etmək, istehsal prosesində yenilik tətbiq etmək, məhsulların bazara çıxarılması, marketinq və s. mövzularda qarşılaşdıqları çətinliklərin aradan qaldırılması olduqca çətindir. Bir çox ölkələrdə KOS-ların artan rəqabət şəraitində müxtəlif yeniliklərlə ayaqlaşmaları və yuxarıdakı çətinliklərin öhdəsindən gəlmələri üçün klasterlər yaradılmışdır, hansı ki, bu sistemlərin tərkibində onlar digər iqtisadi subyektlərlə birlikdə aktiv əməkdaşlıq şəraitində olurlar. Belə bir sistem çərçivəsində onların fəaliyyətləri KOS-lara rəqabət üstünlüyü qazandırır. O cümlədən klasterlərdə, sahibkarlar arasında rəqabət və əməkdaşlığın eyni zamanda təmin edilməsi nəzərdə tutulur.

Son dövrlər ölkəmizdə yaradılan sənaye parkları və məhəllələri ümumi klasterləşmə siyasətinin bir hissəsini təşkil edir. Belə ki, artıq Balaxanı Sənaye Parkı və Sumqayıt Kimya Sənaye Parkı fəaliyyət göstərir. Mingəçevir və Pirallahı sənaye parklarının isə təşkili istiqamətində müəyyən tədbirlər görülür. Həmçinin, Masallı və Neftçala sənaye məhəllələrinin də yaradılması KOS-ların klasterləşməsi baxımından xüsusi qeyd edilməlidir. Lakin qurulan sənaye parkları sahibkarların könüllü klaster formalaşdırmasına deyil, dövlət təşəbbüsünə söykənərək yaradılmışdır. Ölkəmizdə mövcud olan sənaye parkları və məhəllələri dövlət vəsaiti hesabına yaradılmışdır və bununla bağlı, gələcəkdə xüsusi iqtisadi zonalar, eləcə də sənaye parkları və məhəllələrinin infrastrukturlarının özəl sektor tərəfindən özəl kapitallar hesabına yaradılması təşviq edilməlidir.

Azərbaycanda sahibkarlığın regional inkişafında çox ciddi problemlər var. Bunun əsas səbəblərindən biri kiçik və orta biznesin əsasən Bakıda cəmləşməsidir. Buna görə də müxtəlif regionlarda yaranan və rayonlarda sahibkarlığın vəziyyətini araşdıran bir neçə mərkəzlər Bakıda fəaliyyət göstərən vahid mərkəzə tabe olmalıdır. Eyni zamanda sistemin bütövlükdə İqtisadi İnkişaf Nazirliyinin

tabeliyində olması zəruridir. Bu da həmin mərkəzlərin fəaliyyətinə ümumi dövlət nəzarətinin həyata keçirilməsini xeyli asanlaşdırır.

Regionlarda sahibkarların adətən qarşılaşdıqları ən böyük çətinliklərdən biri istehsal etdikləri məhsulların satışı problemidir. Qərb ölkələrindən fərqli olaraq, Azərbaycanda sahibkarların çoxu məhsul istehsal etməmişdən qabaq heç bir marketinq fəaliyyəti həyata keçirmir. Ancaq Sahibkarlığın İnkişaf Mərkəzlərinin əməkdaşları onların əvəzinə bazarı tədqiq edərək gələcəkdə hansı məhsulların istehsalının daha gəlirli olmasını və eləcə də hansı bölgələrdə həmin məhsullara ehtiyacın olduğunu müəyyənləşdirə bilərlər. Bu mərkəzlərin fəaliyyətə başlaması bir neçə regional problemlərin aradan qaldırılmasına da şərait yarada bilər:

- Azərbaycanda regionlar arasındakı iqtisadi əlaqələrin genişlənməsi;
- regionlarda fəaliyət göstərən kiçik və orta sahibkarların işinin əlaqələndirilməsi;
- yeni iş yerlərinin açılması;
- yerli əhəmiyyətli xammal ehtiyatının istehsala cəlb edilməsi və onlardan daha səmərəli istifadə edilməsi;
- sahibkarların marketinq fəaliyyətlərinin həyata keçirilməsinə kömək göstərərək məhsul və xidmətlərin satışında olan probleminin aradan qaldırılması
- Ucqar dağ rayonlarda və kəndlərdə əhalinin sosial-mədəni həyat səviyyələrinin yüksəldilməsi və s.

Son illərdə sahibkarların maariflənməsi, müasir biznes metodlarına yiyələnməsi və biznes fəaliyyətini həyata keçirmə potensiallarının gücləndirilməsi sahəsində bir sıra tədbirlər görülməlidir. Sahibkarlar üçün Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi nəzdində fəaliyyət göstərən Biznes Tədris Mərkəzi tərəfindən müxtəlif təlim və seminarlar təşkil edilmişdir. Təlimlərin mövzuları sahibkarların ehtiyaclarına uyğun olaraq qurulmuşdur. Ancaq buna baxmayaraq, Azərbaycanda kiçik və orta sahibkarların bilik və bacarıqları heç də müasir tələblərə cavab vermir. Buna görə də bu sahədə səylərin daha da gücləndirilməsi çox vacibdir. Belə ki, Azərbaycanda fəaliyyət göstərən KOS

subyektləri ilə, xüsusilə regionlarda yerləşən KOS subyektləri ilə Bakıda fəaliyyət göstərən böyük şirkətlər arasında müasir biznes bacarıqları baxımından xeyli fərq vardır. Lakin inkişaf etmiş ölkələrdə KOS subyektləri ilə iri şirkətlər arasında bu fərq müxtəlif dəstək tədbirləri nəticəsində çox az nəzərə çarpır. Vacib problemlərdən biri də ölkədə sahibkarlıq anlayışı və ruhunun çox yüksək səviyyədə olmamasıdır.

Hər bir ölkədə dövlətçiliyin və müstəqilliyin daha da gücləndirilməsi, gələcəyin etibarlı təminatı intellektual kadrların yetişdirilməsindən və gənclərin cəmiyyətin bütün sferalarında iştirakından, o cümlədən onların aparıcı qüvvələrə çevrilməsindən çox asılıdır. Azərbaycanın mövqelərinin möhkəmlənməsində çox mühüm rol oynayan amillərdən biri də daha güclü, ixtisaslı və innovativ işçi qüvvəsidir. Azərbaycan gənclərinin bugün bütün sahələrdə özünü göstərmələri üçün onlara şərait yaradılması olduqca vacib məsələdir. Gənclərin inkişafı dövlətin diqqətində olan bir məsələdir. Gənclər sadəcə elm, mədəniyyət, ədəbiyyat və istehsalat sahəsində deyil, həmçinin biznes və sahibkarlıqda da özlərini göstərə bilirlər. Onlarla iş sahəsində görülən məqsədyönlü tədbirlər Azərbaycan gəncliyinin davamlı inkişafına təkan verir və onların cəmiyyətdə özlərini təsdiq etmələrində mühüm rol oynayır. Gəncliyin bu cür inkişafında növbəti mərhələnin təmin edilməsi istiqamətində “Azərbaycan gəncliyi 2011-2015-ci illərdə” Dövlət Proqramı təsdiq edilmişdir. Bu Dövlət Proqramının ən əsas məqsədi ölkəmizdə gənclər siyasətini inkişaf etdirmək və gənclərin menecment sahəsində aktiv iştirakına şərait yaratmaq, eləcə də gənc mütəxəssislərin işlə təminatı problemi və digər sosial-iqtisadi problemlərin həllini təmin etməkdir.

Sahibkarlıq sahəsində idarəetmə qabiliyyətinin yüksəldilməsi və müasir bazarın tələblərinə cavab verən mütəxəssislərin hazırlanması məqsədilə “Sahibkarlıq universiteti”nin yaradılması məqsədəuyğundur. “Sahibkarlıq universiteti”nin əsas məqsədi universitetlərdə formalaşdırılan innovasiya və alınan bütün patentləri sahibkarlıq subyektlərinə çevirərək ölkənin iqtisadi inkişafına və həmçinin maliyyə imkanlarının artmasına da müsbət təsir göstərməkdir. “Sahibkarlıq universiteti” tələbə və müəllim heyəti arasındakı sahibkarlıq

vərdişlərini inkişaf etdirir, eləcə də yüksəkixtisaslı kadrların da hazırlığını həyata keçirir. Eyni zamanda sənaye müəssisələri və digər təşkilatlar ilə yaxından əməkdaşlıq edərək universitetdə aparılan elmi tədqiqat işlərini sənayenin tələblərinə uyğun qurur.

# NƏTİCƏ VƏ TƏKLİFLƏR

İnkişaf etməkdə olan iqtisadiyyatların yolu ilə gedən Azərbaycan dövləti xüsusilə dövlət müəssisələrinin özəlləşdirilməsi,sənaye parkları və xüsusi iqtisadi zonaların yaradılması vasitəsilə ölkəyə xarici investisiyalar cəlb etməyə çalışır.

2015-ci ilin sonlarından etibarən sahibkarlığın inkişafı ilə bağlı verilən qərarlar iqtisadiyyatın davamlı inkişafının təmin olunması baxımından strateji xarakter daşıyır və sahibkarlığın inkişafı üçün yeni dövrün başlanğıcı olmuşdur. Belə ki,

- ✓ sahibkarlıq sahəsində aparılan yoxlamalar 01 yanvar 2021-ci ilədək dayandırılmış;
- ✓ lisenziya tələb olunan fəaliyyət növlərinin və icazələrin sayı azaldılmış, onların verilməsi üçün tələb olunan prosedurlar sadələşdirilmiş;
- ✓ investisiyaların və ixracın təşviqi mexanizmi yaradılmış;
- ✓ idxal-ixrac əməliyyatlarının şəffaflaşdırılması üçün elektron gömrük xidmətləri genişləndirilmiş;
- ✓ yerli istehsalın dəstəklənməsi və dövlət satınalmalarında yerli istehsala üstünlük verilməsi işləri aktivləşdirilmiş;
- ✓ kənd təsərrüfatı məhsullarının istehsalı və emalının stimullaşdırılması üçün dəstək tədbirləri genişləndirilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 28 dekabr 2017-ci il tarixli Kiçik və orta sahibkarlıq sahəsində idarəetmənin daha da təkmilləşdirilməsi haqqında Fərmanı ilə Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyində publik hüquqi şəxs statuslu “Azərbaycan Respublikasının Kiçik və Orta Sahibkarlığın İnkişafı Agentliyi” və onun tərkibində ölkənin iri rayon və şəhərlərində “Kiçik və orta sahibkarlıq evi” yaradılmışdır.

Həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində makroiqtisadi sabitlik qorunub saxlanılmış, sahibkarlığa dövlət dəstəyi gücləndirilmiş, kiçik və orta sahibkarlıq sahələrinin və bütövlükdə regionların tarazlı inkişafı sürətlənmiş, strateji valyuta ehtiyatlarından səmərəli istifadə təmin olunmuş, əlverişli biznes mühiti formalaşmış və əhalinin sosial rifahı davamlı olaraq yaxşılaşmışdır. Ölkə

iqtisadiyyatının neftdən asılılığının minimuma endirilməsi və sahibkarlığın inkişafına əsaslanan rəqabətqabiliyyətli milli iqtisadiyyata çevrilməsi, biznes və investisiya mühitinin daha da yaxşılaşdırılması istiqamətində tədbirləri davam etdirmək əsas strateji hədəflərdən biri kimi müəyyən edilmişdir.

Ölkədə aparılan iqtisadi islahatların əhatə dairəsinin daha da genişləndirilməsini və bu sahədə işlərin səmərəli əlaqələndirilməsini təmin etmək məqsədilə 2016-cı ilin aprel ayında iqtisadi islahatların təhlili və kommunikasiyası mərkəzinin yaradılması da xüsusi olaraq qeyd edilməlidir.

Əlverişli biznes mühitinin formalaşması baxımından ölkədə stimullaşdırıcı vergi mexanizmlərinin rolunun daha da artırılması istiqamətində zəruri tədbirlər görülməli, qanunvericilik bazası təkmilləşdirilməlidir. Eyni zamanda həyata keçirilən vergi islahatları işgüzar fəallığı dəstəkləməli, verginin mühüm bir iqtisadi alət kimi fiskal və tənzimləyici funksiyaları bir-birilə əlaqələndirilməlidir.

Ölkə iqtisadiyyatının şaxələndirilməsi, regionların tarazlı inkişafı, özəl sektorun inkişaf etdirilməsi, sahibkarlığa dövlət dəstəyinin artırılması, qeyri-neft məhsullarnın istehsalının rəqabətqabiliyyətliliyinin yüksəldilməsi və ixracyönümlü sahələrin inkişafı məqsədilə yeni layihələr işlənib hazırlanmalıdır.

Kiçik sahibkarların maliyyə resurslarından düzgün istifadə edə bilmələri üçün uyğun şərait yaradılmalı (françayzinq və lizinqdən istifadə), kiçik və orta sahibkarların maliyyə savadlılığının artırılması istiqamətində məqsədyönlü tədbirlər görülməli, kiçik müəssisələrin dəstəklənməsi üçün vergi güzəştlərinin tətbiqi genişləndirilməlidir.

Xarici ödənişlər - Gömrük şəffaf olduğu zaman sahibkar da ödənişləri eyni formada etməlidir. Bu isə bank sektorunda yeniliklərə və eləcə də, xarici ticarətin şəffaf olmasına gətirib çıxaracaq.

Vergi - Son olaraq sahibkar vergi sistemində işlərini məcburən şəffaf etməli olacaq, çünki xaricdən mal göndərən şirkət şəffaf işlədiyinə görə, öz kontraqentlərini də eyni şəkildə işləməyə sövq edəcək. Və bu da, vergi ödənişlərinin şəffaf olacağına gətirib çıxaracaq.

# İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI

## Azərbaycan dilində


1. "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi" 2016.
2. "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair strateji yol xəritəsi" 2016.
3. "Azərbaycanın statistik göstəriciləri 2017-2018". Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi.
4. Aİ Biznes Mühiti hesabatı Azərbaycan 2018.
5. A.B.Abbasovun ümumi redaktəsi ilə. "Biznesin təşkili və idarə edilməsi" Dərslik. Bakı. 2011., 464 səh.
6. Abbasov A.B " Biznesin əsasları " Bakı 2005., 644 səh.
7. " Doing Business 2019" hesabatı.
8. Əlizadə. Ş., (2015) "Bazar Münasibətləri Şəraitində Kiçik Və Orta Sahibkarlığın Inkişafına Dövlət Dəstəyinin Hüquqi Təminatının Təkmilləşdirilməsi Məsələləri" Azərbaycan Dövlət İqtisad Universiteti, Bakı, -107 səh.
9. İmanov.Ə.Ş. " Biznesin investisiya strategiyası ". Bakı.2014.
10. Məmmədov.Ə., Seyfullayev.İ " Vergi və İnvesisiya ". Bakı.2013., 376 səh.
11. " Sahibkar qadınlara kiçik biznes fəaliyyəti üçün məlumat kitabı ". Bakı 2012.


## Xarici dildə


1. Marangoz. M. "Girişimcilik" , s. 456.
2. Dornbuch.R, Fisher.S, Stars.R. "Macroeconomics", 1998., p. 657.


## İnternet resursları


1. www.azstat.org
2. www.economy.gov.az
3. www.e-qanun.az
4. www.president.az
5. www.stat.gov.az
6. https://www.azerbaijanleasing.com/
7. http://www.ser.az/
8. http://www.oecd.org
9. http://iqtisadiislahat.org
10. www.doingbusiness.org
11. https://enterpriseazerbaijan.com/
12. http://www.taxes.gov.az/modul.php?name=beynelxalq&news=237
13. https://arastirmax.com/en/system/files/dergiler/25825/makaleler/5/arastirmax-vergi-yukunun-optimallasdirilmasinin-nzri-saslarina-bir-baxis.pdf
14. http://ecoreform.az/store//media/islahat_icmali/2018/iyun/DTH__AZE.pdf

15. http://www.taxes.gov.az/modul.php?name=pages&page=208
16. http://www.taxes.gov.az/modul.php?name=metbuat&bolme=pressreliz&pid=1818&lang
17. http://edf.az/ts_general/azl/ksid/media/2018/bekir-narimanoglu_sahibkarin-pul-derdi.pdf
18. https://ann.az/az/azerbaycan-qadin-sahibkarlarin-sayi-ile-yune-bilermi/#.WDwTh-Z97De

## Şəkillərin siyahısı

Şəkil 1. “Doing Business 2019” hesabatı üzrə Azərbaycanın sıralaması................27

Şəkil 2. Azərbaycanda maliyyə bazarlarına çıxış..................................................42

Şəkil 3. 2018-ci ilin 9 ayı ərzində yeni açılan daimi iş yerlərinin iqtisadi rayonlar üzrə olan xüsusi çəkisi..........................................................................................48

## Cədvəllərin siyahısı

Cədvəl 1. İqtisadiyyatın neft və qeyri-neft bölmələrində ümumi daxili məhsul istehsalı..............................................................................................................43

Cədvəl 2. Azərbaycanda xarici ticarət dövriyyəsi..................................................44

## Qrafiklərin siyahısı

Qrafik 1. Əhalinin əmanətləri, dövrün sonuna, mln. AZN.....................................47
Qrafik 2. İqtisadiyyata kredit qoyuluşları, dövrün sonuna mln. AZN.....................48
Qrafik 1. 2018-ci il ərzində yeni açılmış iş yerlərinin bölgüsü...............................49